Xalqın qəzeti!
# Xalq qəzeti
№ 007 (30411) 14 yanvar 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## Azərbaycan icması Fransada “heykəl vandalizmi”ni pislədi



Səhifə ⇨ 2

# Avropanın 8 ölkəsi Azərbaycan qazı ilə isinir



**Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyi getdikcə güclənir. Ölkəmizlə Avropa İttifaqı arasında əməkdaşlığın təməli isə Avropa Birliyi və onun üzv dövlətləri ilə 1999-cu il iyulun 1-də imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyulub. Ötən müddətdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu baxımdan son illər Azərbaycanın şaxələndirilmiş boru kəmərləri sisteminə malik olması enerji əməkdaşlığının daha da möhkəmləndirilməsinə səbəb olub.**

2022-ci ilin yayında Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycana rəsmi səfəri çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə bu əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Artıq Azərbaycan strateji tərəfdaşı olduğu Avropa İttifaqı ilə bir çox sahələrdə fəal dialoq aparır. Neft, qaz və bərpaolunan enerji mənbələri, hidrogen, enerji səmərəliliyi və digər sahələr tərəflər üçün getdikcə daha çox aktuallıq kəsb edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin gələcək üçün yol xəritəsi kimi dəyərləndirdiyi Anlaşma Memorandumu Azərbaycanla Avropa İttifaqı arasında planlaşdırılan bütün məsələlərin həllinə imkan yaradacaq. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsində ölkəmizin “köhnə qitə”nin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr vediyini diqqətə çatdıraraq deyib: “Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişdik. Avropa Komissiyası qeyd etdiyiniz kimi, Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Avropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdır”.

*(ardı 7-ci səhifədə)*




# İrəvanın anti-Rusiya fəaliyyəti səngimək bilmir

## Qriqoryanın “Ukrayna sülh formulu” üzrə görüşdə iştirakı bunun göstəricisidir



**Ermənistan hökuməti anti-Rusiya istiqamətində addımlar atmaq siyasətini davam etdirir. Ölkənin təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın “Ukrayna sülh formulu”nda iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri bunun daha bir göstəricisidir. Təhlükəsizlik şurasının ofisi bildirib ki, Armen Qriqoryan yanvarın 14-də “Ukrayna sülh formulu”nun Davos şəhərində keçiriləcək sayca dördüncü iclasına qatılacaq.**

Məlumat üçün bildirək ki, “Ukrayna sülh formulu” üzrə ilk görüş 2023-cü il iyunun 25-də Kopenhagendə keçirilib. İkinci görüş avqustun 5-6-da Ciddədə, üçüncü isə oktyabrın 28-də Maltada baş tutub. Dünya İqtisadi Forumu çərçivəsində keçiriləcək budəfəki görüşdə 80-dən çox nümayəndə heyətinin iştirakı nəzərdə tutulub. İclas dövlət və hökumət başçılarının milli təhlükəsizlik məsələləri üzrə müşavirləri səviyyəsində keçiriləcək. Bu zaman Prezident Vladimir Zelenskinin Ukraynada davamlı sülhə nail olmaq üçün 2023-cü ilin əvvəlində təklif etdiyi 10 əsas prinsipdən ibarət sülh formulu müzakirə olunacaq. Həmin sülh formulu Rusiya qoşunlarının Ukraynadan çıxarılmasını, 1991-ci il sərhədlərinə qayıtmasını, təzminat ödənişlərini, nüvə, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsini nəzərdə tutur.

İsveçrə Xarici İşlər Nazirliyindən verilən məlumata görə, sülh formulu görüş zamanı əsas diqqət mərkəzində olacaq. Davos görüşünün əvvəlki iclaslardakı nəticələri nümayiş etdirməsi və gələcək addımların müzakirəsinə zəmin yaratması gözlənilir.

Ermənistan ikinci dəfədir ki, Ukrayna üzrə görüşdə iştirak edir. Maltadakı görüşdə də İrəvanı A.Qriqoryan təmsil etmişdi. Nikol Paşinyanın komandasının əsasən Qərbpərəstlərdən təşkil olunması heç kəsə sirr deyil. Qriqoryan isə qatı Qərbpərəstliyi ilə komanda yoldaşlarından fərqlənir.

Əlbəttə, Rusiya və Ukrayna arasında davam edən müharibəyə necə yanaşmaq hər bir dövlətin özünün daxili işidir. Amma məsələ ondadır ki, Rusiya və Ermənistan strateji tərəfdaşdır. Münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldıran ikitərəfli sənədlər var. Hər iki ölkə bir sıra regional təşkilatlarda təmsil olunur. Ermənistan Rusiya ilə Avrasiya İqtisadi İttifaqı çərçivəsində iqtisadi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində isə hərbi əməkdaşlıq edir. Ermənistan ərazisində Rusiyanın hərbi hissəsi yerləşir. Onun dövlət sərhədlərinin təhlükəsizliyini Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları təmin edir. Bütün bunlar Ermənistanın Rusiya–Ukrayna müharibəsində Moskvanı dəstəkləməsini, onunla birgə hərəkət etməsini şərtləndirən səbəblərdir. Ancaq biz bunun əksini müşahidə etməkdəyik. İrəvanın bu siyasəti ekspertlər tərəfindən haqlı olaraq, “eyni vaxtda iki stulda oturmaq” siyasəti adlandırılır.

Paşinyan iqtidarı əvvəllər də, yəni, hakimiyyətə gəldiyi 2018-ci ildən etibarən Rusiyaya, necə deyərlər, arxadan zərbə vurur, Qərblə əməkdaşlığı genişləndirirdi. Ölkədə yerləşən ABŞ biolaboratoriyalarının sayını artırırdı. Hələ 2022-ci ilin aprelində politoloq, “Xalqın səsi” ekspert klubunun üzvü Arman Qukasyan Ermənistanda 12 ABŞ biolaboratoriyasının olduğunu bildirmişdi. Birləşmiş Ştatlar iddia edir ki, bu qurumların məqsədi kənd təsərrüfatı ilə əlaqəlidir. Ancaq bu laboratoriyaların ikili funksiya daşıdığı məlumdur, çünki onlar hərbçilər tərəfindən maliyyələşdirilir və fəaliyyəti son dərəcə məxfi saxlanılır. Bu isə həmin müəssisələrin bioloji silah hazırladığına dair fikirlərin meydana çıxmasına səbəb olub.

*(ardı 4-cü səhifədə)*

## Cənubi Qafqazın geosiyasi parçalanma riski

Səhifə ⇨ 5

## Azərbaycan növbəti dəfə demokratik seçki nümunəsi göstərəcək



Səhifə ⇨ 6



## Dunya düzəlmir ki, düzəlmir...

Səhifə ⇨ 3

## “Qardian”: Neonasistlər savaşdan geri çəkilirlər



Səhifə ⇨ 5

## Tarixə hökm etmiş uyğurlar



Səhifə ⇨ 9

## Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19 cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının təşkili və keçirilməsinin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19 cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

### Təşkilat Komitəsinin sədri

Samir Nuriyev – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

### Təşkilat Komitəsinin üzvləri:

Muxtar Babayev – Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri

Anar Ələkbərov – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Hikmət Hacıyev – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Kəmaləddin Heydərov – Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri

Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Arif Səmədov – Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi

Pərviz Şahbazov – Azərbaycan Respublikasının energetika naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Şahin Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Vüqar Əhmədov – "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Ruslan Əliyev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru

Eldar Əzizov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Anar Quliyev – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüqar Qurbanov – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Ülvi Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Əli Nağıyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Balababa Rzayev – "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Samir Rzayev – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi:

2.1. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19 cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planı hazırlayıb həyata keçirsin;

2.2. əməliyyat şirkətinin yaradılması ilə əlaqədar tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan Tədbirlər Planının icrası ilə bağlı maliyyələşdirməni təmin etsin və digər zəruri məsələlərin həlli üçün tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 yanvar 2024-cü il**

# Gənc müəllimlərin siyasi dəstəyi



**Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə "Milli təhsilimizin gələcəyi, gənc müəllim – fəal vətəndaş" mövzusunda forum keçirilib.**

600 müəllimin iştirak etdiyi forumda AGMA-nın sədri Rüfət Əsədzadə məclisin məqsəd və əhəmiyyəti barədə iştirakçılara məlumat verib. Şəhid Valeh Bədəlovun anası, ibtidai sinif müəllimi Südabə Qazıyeva, ADA məktəbinin müəllimi, AGMA-nın İdarə Heyətinin üzvü Səkinə Həsənova, teleaparıcı Jalə Həsənli, İrəli İctimai Birliyinin sədri Şahin Rəhmanlı, Gənclərin İnkişaf və Karyera Mərkəzinin baş direktoru Azər Əliyev, təhsil eksperti Günel Səfərova müxtəlif mövzular ətrafında fikirlərini bölüşüblər.

Sonda qəbul edilən bəyanatda gənc müəllimlərin milli təhsilin inkişafına böyük töhfələr verməsi, müstəqil Azərbaycanın sosial-iqtisadi tərəqqisi və dünya birliyində layiqli yer tutmasını təmin etmiş ölkə başçısı İlham Əliyevin siyasi kursunu dəstəklədikləri vurğulanıb.

**XQ**

# Azərbaycan icması Fransada "heykəl vandalizmi"ni pislədi



**Fransada azərbaycanlı şair Xurşidbanu Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktına cavab olaraq, Azərbaycan və türk icmalarının üzvləri yanvarın 13-də Evianda etiraz aksiyası keçiriblər.**

Aksiyada Xurşidbanu Natəvanın irsinin qorunmasına, Eviandakı "Azərbaycan bağı"nın adının bərpasına, ədəbiyyatda, eləcə də qadın azadlığında böyük rolu olan X.Natəvanın xatirəsini ehtiramla anmağa və onun irsinin qorunub saxlanması üçün həmrəyliyə çağırışlar edilib.

Qeyd edək ki, 2017-ci ildə İsmayıllı və Evian şəhərlərinin qardaşlaşmasından sonra Azərbaycanın Evian-le Bən şəhərinə hədiyyəsi olaraq "Azərbaycan bağı"nda ucaldılmış heykələ qarşı vandalizm aktı təkcə azərbaycanlıları deyil, yerli ictimaiyyəti də narahat edib.

**XQ**

# Müstəqil media mərkəzi fəaliyyətə başlayıb

**Mərkəzi Seçki Komissiyasının media mərkəzi tam hazır vəziyyətə gətirilib.**



XQ-nin məlumatına görə, bununla bağlı Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında bildirilib.

Komissiyanın sədr müavini Rövzət Qasımov vurğulayıb ki, yanvarın 14-dən etibarən media mərkəzi öz işinə aktiv şəkildə başlayır. Mərkəzə peşəkar media nümayəndələri cəlb edilib.

**XQ**

# MSK püşkatma keçirəcək

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparmaq üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar arasında bərabər şərtlərlə və bərabər həcmdə bölgüsü məqsədilə püşkatma keçiriləcək.**

Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin Media və kommunikasiya şöbəsindən verilən məlumata görə, püşkatma 2024-cü il yanvarın 15-i saat 14:00-da MSK-nın inzibati binasında təşkil olunacaq.

**XQ**

# Müşahidəçilərin sayı açıqlanıb

**Növbədənkənar prezident seçkilərini izləmək məqsədilə qeydiyyatdan keçən müşahidəçilərin sayı açıqlanıb.**

Bu barədə Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında məlumat verilib.

MSK sədri Məzahir Pənahov bildirib ki, indiyə qədər 20 500-dən çox müşahidəçi qeydiyyatdan keçib. Həmin müşahidəçilərin 18 159-u dairə seçki komissiyalarında qeydiyyatdan keçənlərdir.

**XQ**



# Mədəniyyət naziri İsmayıllıda



**Mədəniyyət naziri Adil Kərimli İsmayıllı şəhərində vətəndaşları qəbul edib. Şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda əsasən İsmayıllı, Ağsu, Qobustan və Şamaxı rayonlarından ümumilikdə 42 vətəndaş iştirak edib.**

Görüşdə vətəndaşların müxtəlif mövzularda müraciətləri dinlənilib. Müraciətlər əsasən işlə təmin olunma, fəxri adla təltif edilmə, mədəniyyət sahəsi ilə bağlı təklif və mövcud problemlər və digər məsələlərlə bağlı olub.

Nazir müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

**XQ**

# FHN xəstəxanada təlim keçirib

**Yanvarın 13-də Fövqəladə Hallar Nazirliyi M.A.Qasımov adına Respublika Klinik Xəstəxanasında təlim keçirib.**

FHN-dən verilən xəbərə görə, Fövqəladə Hallar Nazirliyi və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) tərəfindən M.A.Qasımov adına Respublika Klinik Xəstəxanasında baş verə biləcək fövqəladə hadisələr zamanı fəaliyyətin təşkili mövzusunda birgə təlim keçirilib.

Təlimə FHN-in xüsusi təyinatlı texnikaları və şəxsi heyəti cəlb olunub.

**XQ**

# Qubadlıda silah aşkarlanıb

**Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən silah-sursatın yığılaraq təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, keçirilən növbəti tədbir zamanı rayonun Mahmudlu kəndi ərazisində 1 pulemyot, 1 avtomat, müxtəlif çaplı patronlar və digər sursatlar aşkar olunaraq müvafiq qaydada götürülüb.

Faktla bağlı araşdırma aparılır.



# Dunya düzəlmir ki, düzəlmir...

## Xanım komissarın hesabatı – mənasız balans cəhdi, illüziya motivi və bir də közərən ədalət

**Düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız. Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviçin Azərbaycan və Ermənistan arasındakı sülh prosesi ilə bağlı yaydığı bəyanat və sənəddə bildirdikləri bu el misalını xatırladır. Əlbəttə, başa düşürük ki, D.Miyatoviç insan hüquqları sayəsində çalışan şəxsdir və onun Cənubi Qafqazdakı ən böyük münaqişə müstəvisində fikir bildirməsi lazımdır. O anlamda ki, xanım Miyatoviç özünün fəaliyyətdə olduğunu göstərməlidir. Amma indiki formada yox.**



Əvvəlcə onu qeyd edək ki, D.Miyatoviçin hesabatında müsbət məqamlar da əksini tapmaqdadır. Komissarın 16-23 oktyabr 2023-cü il tarixlərində Ermənistana və Azərbaycana səfəri ilə bağlı müşahidələrinə əsaslanmış hesabatında ərazilərimizin Ermənistan tərəfindən işğal olunduğu və işğalın otuz ilə yaxın davam etdiyi bildirilib. Hesab edirik ki, hazırkı durumda bunun vurğulanması vacibdir. Çünki rəsmi İrəvan Bakını, az qala, bütün beynəlxalq platformalarda işğalçı kimi göstərməkdə və bu yolla sülh prosesi müstəvisində manipulyasiyalara yol verməkdədir.

Hesabatın digər müsbət məqamı Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində qondarma "etnik təmizləmə" və ya "məcburi köçkünlük" ilə bağlı iddiaları heçə endirməsidir. Yəni, komissarın hesabatı Qarabağ ermənilərinin könüllü şəkildə öz evlərini tərk etmələrini təsdiqidir.

Xanım Miyatoviçin yaydığı bəyanatda erməni əhalinin geri qayıtması




üçün Azərbaycan hakimiyyətinin atdığı konkret addımlardan söz açılması da pozitiv məqam kimi vurğulanmalıdır. O cümlədən, Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı rəsmi Bakının reallaşdırdığı tədbirlər.

Hesabatda əksini tapmış ən vacib məqamlardan biri də orada Ermənistan tərəfindən həyata keçirilməkdə olan mina terroruna yer verilməsidir. Bu cəhət onu göstərir ki, Avropa Şurası sözügedən terroru fundamental insan hüquq və azadlıqlarının pozulması kontekstində qiymətləndirir. Müvafiq olaraq, Azərbaycanın durumun ağırlığını aradan qaldırmaq, əhalinin öz evlərinə qayıtmaları istiqamətindəki sistemli və ardıcıl tədbirləri sadalanır ki, bunları da hesabatın pozitiv təmayülü kimi nəzərə almaq mümkündür.

Əlbəttə, Miyatoviç onu da deyə bilərdi ki, Ermənistan regionda təcavüzkar siyasətini həyata keçirmək və Azərbaycan ərazilərinin işğalını davam etdirmək məqsədilə qəsdən kütləvi şəkildə minalar yerləşdirib. Ancaq bunu vurğulamır, sadəcə, İrəvan tərəfindən Bakıya verilmiş mina xəritələrinin dəqiqlik dərəcəsinin azlığı üzərində dayanır. Məlumdur ki, bu "azlıq" neçə-neçə dinc azərbaycanlının həyatının itirilməsi kimi dəhşətli durum formalaşdırıb. Çox yaxşı olardı ki, xanım komissar məhz bundan söz açaydı və haqqında danışacağımız sentimentallığın mövcud istiqamətdə ortaya qoyaydı. Onun sentimentallığı nədədir, bu barədə də məlumat verəcəyik.

Hələlik isə bildirək ki, bütün bu pozitiv məqamlara baxmayaraq, Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında yazıldığı kimi, D.Miyatoviçin hesabatı Ermənistanın başlatdığı və Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı ilə nəticələnmiş münaqişənin təsirinə məruz qalmış bütün insanların ümumi insan hüquqlarının vəziyyəti ilə bağlı fundamental reallıqları həqiqi mənada əks etdirmir. Çünki işğal fonunda azərbaycanlılara qarşı etnik təmizləmə, hərbi cinayətlər həyata keçirilib, yüz minlərlə həmvətənimiz məcburi köçkünə çevrilib. Yaxşı olardı ki, komissar mövcud məqamı da nəzərə alaydı.

Digər tərəfdən, xanım Miyatoviçin indiki durumda Laçın yolu və Qarabağın blokadası müstəvisində erməni avantürizminə "züy tutmaq" istədiyi də ortadadır. Nəzərə alaq ki, hazırkı həssas situasiyada bu məntiqə üstünlük verilməsi sülh prosesinə fayda gətirməyən haldır. Əgər xanım komissar belə yanaşması ilə tərəflər arasında, bir növ, balans yaratmağı düşünürsə, çox ciddi şəkildə yanılır. Bu yerdə ölkəmizin Xarici İşlər Nazirliyinin hesabata münasibətindəki bir məqamı da diqqətə çatdırmağı vacib sayırıq: "Nəhayət, xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan komissarın tərəfsizliyə, qərəzsizliyə, bərabərliyə və bütün insan hüquqlarının universallığına əsaslanan müşahidələr aparacağını gözləyərək onu ölkəmizə səfərə dəvət etmişdir. Səfərin nəticələrinə baxdıqda, komissarın müşahidələrində tam ədalətlilik və qərəzsizlik olmadığını Azərbaycan vurğulayır. Komissar məsələləri situasiyaya hərtərəfli baxışı nəzərdən qaçıran dar və yeganə perspektivə yönəldir. Bununla əlaqədar, Azərbaycan hesab edir ki, nəticələr komissarın səfəri zamanı birbaşa müşahidələrinə deyil, ilk növbədə, digər natamam və qərəzli mənbələrdən əldə edilən məlumatlara əsaslanır".

Gələk sentimentalizmə. Bəli, D.Miyatoviç sərt həqiqətlərə deyil, Qarabağ erməniləri xüsusunda saxta sentimentalizm notlarına üstünlük verməkdədir. Böyük şey olubmuş, komissar Xankəndi küçələrini boş görüb. Hesab edirik ki, belə bir ritorikanın seçilməsi reallıqları təhrif etmək üçün motivasiyadır və heç şübhəsiz, Ermənistana və onun havadarlarına illüziya dəstəyidir. Axı Azərbaycan hakimiyyəti həmin küçələrin, meydanların boş qalmaması üçün əlindən gələn hər şeyi etmişdi.

Dəstəkdən söz düşmüşkən, hesab edirik ki, hesabatda bu mənada da rəsmi İrəvanın maraq və mənafeləri baxımından təsirli nöqtələr yer almaqdadır. Məsələn, sənəddə bildirilir ki, Avropa Şurasına üzv dövlətlər Qarabağ ermənilərinin tələbatlarının ödənilməsi üçün Ermənistana maliyyə köməyi etməlidirlər. Necə deyərlər, istədiyim yar idi, yetirdi pərvərdigar. Ancaq məsələnin başqa tərəfi də var. İş ondadır ki, indi rəsmi İrəvan Qarabağ ermənilərinin qayıdışını yox, bu dəstəyi qazanmaq üçün anti-Azərbaycan ritorikasını əsas götürəcəkdir. Yəni, bu ritorikanı daha da gücləndirməyi.

Nəzərə alaq ki, tipik erməni baxışında danışdıqları yalanlara inanmaq xüsusiyyəti var. İnanmaq və sonradan həqiqət kimi ortaya atılmış qeyri-obyektiv durumu dövlət siyasətinə çevirmək. İllüziya məntiqi də elə bundadır. Elə ona görə də istər xanım Miyatoviç, istərsə də digər Avropa təsisatlarının ali rütbəli təmsilçiləri mövcud məqam barədə ciddi düşünməli, nəticə çıxarmalıdırlar. Əks təqdirdə, haqqında durmadan söz açdıqları Cənubi Qafqazda sülh mühiti formalaşmayacaq.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Azərbaycan XİN Türkiyəyə başsağlığı verdi

**Azərbaycan Xarici İşlər Nazirliyi Türkiyəyə başsağlığı verib. Bu barədə nazirliyin X səhifəsində yazılıb.**

"Pençe-Kilit antiterror əməliyyatı bölgəsində Türkiyə hərbi qulluqçularının şəhid olması və yaralanması xəbəri bizi dərindən kədərləndirdi. Şəhid olmuş qəhrəman türk əsgərlərinə rəhmət diləyir, qardaş Türkiyəyə və şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı veririk", - paylaşımda bildirilir.

Qeyd edək ki, İraqın şimalında "Pençe-Kilit" antiterror əməliyyatı bölgəsində terror təşkilatı üzvlərinin atəşi nəticəsində 9 türk əsgəri şəhid olub.

*XQ*

# XİN: AŞ komissarının Qarabağ hesabatı natamamdır

**Azərbaycan Xarici İşlər Nazirliyi Avropa Şurasının insan hüquqları üzrə komissarının 2023-cü il oktyabrın 16–23-də Ermənistana və Azərbaycana səfəri ilə bağlı hesabatını – müşahidələrini qeydə alaraq şərh edib.**

Açıqlamada bildirilir: "Komissarın müşahidələrində vurğulandığı kimi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı səbəbindən son 30 ildə qarşısı alınmış bu səfər Azərbaycanın Qarabağ bölgəsinə insan hüquqları üzrə onilliklər ərzində ilk missiya idi. Eyni zamanda, Azərbaycan hökumətinin dəvəti və razılığı ilə həyata keçirilmiş sözügedən səfər Azərbaycan hökumətinin beynəlxalq insan hüquqları



institutlarına münasibətdə şəffaflığının və əməkdaşlığının göstəricisidir".

***Şərhdə daha sonra qeyd olunub ki, bütövlükdə, hesabatda 2023-cü il sentyabrın 19–20-də Azərbaycanın suveren ərazilərində mülki ərazilərə münasibətdə ciddi ehtiyat tədbirləri görülməklə silahlı qüvvələrin həyata keçirdiyi lokal antiterror tədbirləri nəticəsində qondarma "etnik təmizləmə" və ya "məcburi köçkünlük" ilə bağlı əsassız iddialar heçə endirilir:*** "Belə ki, komissarın bölgəyə səfəri və apardığı müşahidələr onu göstərib ki, Azərbaycan hakimiyyəti heç bir güc tətbiq etmədən Qarabağ bölgəsini tərk etmək yerli ermənilərin öz könüllü qərarları olub. Hesabatda xüsusən terrorla mübarizə tədbirlərindən sonra geri qayıtmaq hüququnun və digər insan hüquqlarının təmin edilməsi məqsədilə Azərbaycan hökumətinin atdığı bir sıra konkret addımlar göstərilir. Burada yerli erməni sakinlərin reinteqrasiyası məsələsinə və bu proses çərçivəsində nəzərdə tutulan tədbirlərə Azərbaycanın müsbət niyyəti və yanaşması vurğulanır".

***XİN-in açıqlamasında göstərilir ki, komissarın hesabatında münaqişənin və Ermənistan tərəfindən işğalın xarabalığa çevrilmiş mülki infrastruktura uzunmüddətli təsirləri, azərbaycanlı məcburi köçkünlərin azad edilmiş rayonlara təhlükəsiz və ləyaqətlə qayıtmaq hüququnun təmin edilməsi məqsədilə aparılan minatəmizləmə və yenidənqurma işləri öz əksini tapıb:*** "Bundan əlavə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kütləvi şəkildə minalarla çirklənmə üzrə kəskin problem və bunun ərazilərin reabilitasiyasına, eləcə də keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtma prosesinə qarşı yaratdığı əngəllər, habelə onların sağlamlığı və həyatı üçün ciddi risklər hesabatda vurğulanır".

Şərhdən aydın olur ki, AŞ komissarı Azərbaycan hökumətinin geri qayıtma prosesini asanlaşdırmaq üçün atdığı addımları alqışlayır. Bu kontekstdə, Ermənistanın indiyədək təqdim etdiyi minalanmış ərazilər üzrə xəritələrin dəqiqlik dərəcəsinin (cəmi 25 faiz) hesabatda göstərilməsi xüsusilə qeyd olunmalıdır. Əslində, Ermənistan regionda təcavüzkar siyasətini həyata keçirmək və Azərbaycan ərazilərinin işğalını davam etdirmək məqsədilə Azərbaycanın suveren ərazilərində qəsdən kütləvi şəkildə minaların yerləşdirilməsi ilə məşğul olub.

***XİN-in şərhində bütün bunlarla bağlı bildirilir:*** "Təəssüf ki, sənəd Ermənistanın başlatdığı və Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı ilə nəticələnən münaqişənin təsirinə məruz qalmış bütün insanların ümumi insan hüquqlarının vəziyyəti ilə bağlı fundamental reallıqları həqiqi mənada əks etdirmir. Ermənistanın Azərbaycana qarşı təcavüzü sistemli şəkildə etnik təmizləmə aktlarına, hərbi cinayətlərə və yüz minlərlə azərbaycanlının, o cümlədən həssas vəziyyətdə olan uşaqların, qocaların və qadınların məcburi köçkünə çevrilməsinə səbəb olduğu məlumdur. Ermənistanın təcavüzü on minlərlə uşağı əsas insan hüquqlarından, o cümlədən yaşamaq, təhsil, təhlükəsizlik, müdafiə və sağlamlıq hüququndan ciddi şəkildə məhrum edib. Regionda iki xalq arasında düşmənçiliyə səbəb olan belə dəlillərin komissarın müşahidələrində layiqincə işıqlandırılacağına ümid bəsləyirdik".

***Açıqlamada qeyd edilir ki, hesabatda reallıqdan tamamilə uzaq olan və Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən də tanınmayan Laçın yolunun qondarma "blokada"sına istinadların yer alması təəssüf doğurur:*** "Müşahidələr Laçın–Xankəndi yolunda mülki əhalinin etirazlarının, daha sonra isə Azərbaycan–Ermənistan sərhədində sərhəd-keçid məntəqəsinin yaradılmasına səbəb olan faktları göstərməyib. Azərbaycan tərəfi Ermənistanın son 3 il ərzində 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı və beynəlxalq hüququ kobud şəkildə pozaraq Azərbaycan ərazisində on min nəfərdən çox qeyri-qanuni silahlı birləşmələrin saxlanılması və dövriyyəsi, minaların qanunsuz ötürülməsi daxil olmaqla Laçın yolundan müxtəlif qanunsuz məqsədlər üçün geniş və sistematik şəkildə sui-istifadə olunması ilə bağlı dəfələrlə əsaslandırılmış sübutlar təqdim edib. Bu hərəkətlər Azərbaycan tərəfinin çoxsaylı mülki və hərbi itkilər verməsi ilə nəticələnib".

***XİN təəssüflə qeyd edir ki, komissarın Ermənistan tərəfindən törədilmiş Xocalı soyqırımından sağ çıxan şəxslərlə, o cümlədən müasir Ermənistanda öz yurd-yuvalarından qovulmuş Qərbi Azərbaycan İcmasının üzvləri ilə keçirdiyi görüşlər hesabatda öz əksini tapmayıb:*** "Azərbaycan XİN komissarın müşahidələrində tam ədalətlilik və qərəzsizlik olmadığını vurğulayır. Komissar məsələləri situasiyaya hərtərəfli baxışı nəzərdən qaçıran dar və yeganə perspektivə yönəldir. Bununla əlaqədar, Azərbaycan hesab edir ki, nəticələr komissarın səfəri zamanı birbaşa müşahidələrinə deyil, ilk növbədə, digər natamam və qərəzli mənbələrdən əldə edilən məlumatlara əsaslanır".

*XQ*

# Silahlı Qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılır

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2024-cü il üçün təsdiq etdiyi plana əsasən birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin kadr işləri üzrə heyəti ilə təlim-metodiki toplanış keçirilib.**



Kadr orqanı işçiləri, şəxsi heyətin uçotuna, təşkilat-səfərbərlik və qeyri-məxfi kargüzarlığa cavabdeh şəxslərin iştirak etdiyi toplanışda Şəxsi Heyət Baş İdarəsi rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov çıxış edib. Azərbaycan Ordusunda kadrların idarə edilməsi üzrə ötən il ərzində görülmüş işlərdən danışan Baş İdarə rəisi 2024-cü ildə qarşıda duran əsas tapşırıqlar barədə iştirakçılarla məlumatlandırıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Türkiyə modelinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Ordusunda uğurlu islahatlar aparılıb. Bu istiqamətdə icra edilən tədbirlərin cari ildə də davam etdiriləcəyi və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanıldığı vurğulanıb.

Ordumuzun strateji düşüncəyə malik, bacarıqlı kadrlarla komplektləşdirilməsi, təşkilati-ştat strukturunun təkmilləşdirilməsi üzrə icra edilən tədbirlər, əldə edilən nailiyyətlər, həmçinin kadr idarəetmə sisteminin daha da təkmilləşdirilməsi üzrə görülən işlərin müsbət təsiri diqqətə çatdırılıb.

Təlim-metodiki toplanışda Azərbaycan Ordusunun kadr işləri üzrə cavabdeh zabitlərinin kadr hazırlığı və komplektləşdirmə istiqamətində həyata keçirilən fəaliyyətlər barədə məruzələri dinlənilib.

*XQ*

# İrəvanın anti-Rusiya fəaliyyəti səngimək bilmir




(əvvəli 1-ci səhifədə)

Bu da faktır ki, ABŞ-ın dünyadakı ikinci (Almaniyadan sonra) ən böyük səfirliyi məhz Ermənistanda yerləşir. Hələ 2005-ci ildə açılış mərasimi keçirilən səfirlik 90 min kvadratmetr, yaxud 9 hektar ərazini tutur. Qeyd etdiyimiz kimi, bu, ABŞ Dövlət Departamentinin xaricdəki ikinci ən böyük torpaq mülkiyyətidir. Ekspertlər bunu Vaşinqtonun Ermənistandakı niyyətlərinin ciddiliyinin simvolu hesab edirlər. Beləliklə, aydın olur ki, əslində, Ermənistanın Paşinyandan öncəki rəhbərləri də sözdə Rusiya ilə müttəfiqlikdən danışsalar da, necə deyərlər, əl altından amerikalılarla iş görüblər. Sadəcə, Rusiyanın siyasi nüfuzunun yüksək olması, iqtisadi və hərbi qüdrəti haylar üçün çəkindirici amil olub.

Ancaq Rusiyanın Ukrayna ilə müharibədə istədiyi uğuru qazana bilməməsi, Qərbin bu məsələdə yekdil mövqe nümayiş etdirməsi İrəvanın da öz mövqeyini açıq ortaya qoymasına gətirib çıxardı. Fikir versək, görərik ki, Ermənistan Rusiya–Ukrayna müharibəsinin başladığı 2022-ci ildə susqunluq nümayiş etdirdi. Hayların açıq demarşları isə özünü əsasən 2023-cü ildə, yəni Rusiyanın Ukraynada, necə deyərlər, bataqlığa düşdüyü, SSRİ-nin Əfqanıstandakı vəziyyətinə bənzər durumla üzləşdiyi aydın olandan sonra göstərməyə başladı.

Ermənistan baş naziri Nikol Paşinyan mayın əvvəlində Çexiyaya rəsmi səfəri zamanı "CNN Prima News" telekanalına verdiyi müsahibədə ilk dəfə olaraq, Ukrayna ilə müharibədə Rusiyanın müttəfiqi olmadıqlarını açıqladı. Bildirdi ki, bu fikir heç vaxt yüksək səslə deyilməyib: "Biz Ukrayna ilə müharibədə Rusiyanın müttəfiqi deyilik. Bizim o müharibədən duyduğumuz hiss narahatlıq hissidir, çünki bütün münasibətlərimizə birbaşa təsir edir. Qərbdə bizi Rusiyanın müttəfiqi kimi qəbul edirlər. Rusiyada isə Ukrayna müharibəsində Moskvanın müttəfiqi olmadığımızı görürlər. Belə çıxır ki, biz bu vəziyyətdə heç kimin müttəfiqi deyilik".

Bu kontekstdə N.Paşinyanın həyat yoldaşı Anna Akopyanın keçən il sentyabr ayında Kiyevdə keçirilən görüşə qatılması da nəzərdən qaçmamalıdır. Həmin hadisə Rusiyada etirazla qarşılanmışdı.

İl ərzində Qarabağ iqtisadi rayonunun erməni azlığın yaşadığı hissəsi ilə bağlı baş verən proseslər də Ermənistanın Rusiya ilə bağlı mövqeyinin daha da kəskinləşməsinə səbəb oldu. 2023-cü il dekabrın 11-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Brüsseldə Ukraynanın xarici işlər naziri Dmitri Kuleba ilə görüşdü. Görüşlə bağlı Ermənistan XİN-in bəyanatında həmsöhbətlərin qarşılıqlı maraq doğuran məsələlər, eləcə də Cənubi Qafqazdakı regional problemlər üzrə ikitərəfli əməkdaşlıq haqqında fikir mübadiləsi apardıqları bildirildi.

Bundan sonra N.Paşinyan Rusiyanın aparıcı rol oynadığı MDB-nin Bişkekdə, KTMT-nin isə Minskdə keçirilən sammitlərinə qatılmaqdan imtina etdi. İlin sonunda isə sanki öz fikrini dəyişərək, dekabrın 25-də Avrasiya İqtisadi İttifaqının Sankt-Peterburqda keçirilən iclasına, dekabrın 26-də isə həmin şəhərdə MDB dövlət başçılarının qeyri-rəsmi görüşünə qatıldı. Ancaq görünən odur ki, rəsmi İrəvan Rusiyadan uzaqlaşmaqla bağlı əvvəlki siyasətinə sadiqdir. Nikolun Ukrayna ilə bağlı Davosda keçirilən görüşə təhlükəsizlik şurasının katibini göndərməsi bunun göstəricisidir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

**– Ermənistanın siyasi rəhbərliyi Rusiyaya qarşı addımlarını gücləndirir və artıq bunu gizlədə bilmirlər. Paşinyan komandasının üzvləri Ukraynanın gücləndirilməsi ilə bağlı müxtəlif tədbirlərdə iştirak edirlər. Davosda keçirilən tədbir də bu baxımdan istisna deyil. Bu, onu göstərir ki, Ermənistan Rusiyadan uzaqlaşmaqla bağlı tutduğu geosiyasi kursundan geri dönmür və bu yolda israrlıdır. Baxmayaraq ki, Paşinyan MDB dövlət başçılarının ötən ilin sonunda Sankt-Peterburqda keçirilən qeyri-rəsmi görüşünə qatılmışdı. Bir sıra ekspertlər həmin vaxt qeyd edirdilər ki, İrəvan seçimini dəyişir, yaxud artıq Rusiyameyilli siyasət yürüdəcək. Mən əvvəldən qeyd edirdim ki, bu cür düşüncələr yanlışdır. Bir səfərlə Ermənistan öz geosiyasi mövqeyini dəyişməyəcək. Sankt-Peterburqa səfər həm də ona görə həyata keçirilmişdi ki, 2024-cü il yanvarın 1-dən Ermənistan Respublikası Avrasiya İqtisadi İttifaqına sədrliyi Rusiyadan təhvil alırdı. Həmin təşkilatda iştirak isə Ermənistan üçün çox önəmlidir və iqtisadiyyatına mühüm fayda verir.**

**Bu xüsusda biz görürük ki, Ermənistan Ukrayna ilə bağlı qlobal səviyyəli hər bir tədbirdə iştirak etməyə çalışır. Artıq dördüncü dəfə keçiriləcək "Ukrayna sülh formulu"nda da biz erməni rəsmilərini görəcəyik. Rusiyanın buna reaksiyası gecikir, bəzi hallarda isə heç müşahidə olunmur. Rusiyalı ekspertlər bunu belə əsaslandırırlar ki, Ermənistana ayırmağa vaxtımız yoxdur, biz daha çox müharibənin gedişatı ilə və cəbhədə üstünlüyü ələ almaqla məşğuluq. Amma fakt faktlığında qalır ki, hətta, müharibə bu gün bitsə, razılıq əldə olunsa, sülh müqaviləsi imzalansa, Rusiya artıq Ermənistanın, necə deyərlər, iç üzünü müəyyən edib. Bilir ki, haylar istənilən halda xəyanət edə bilərlər, istənilən halda dəyişiklik arzusundadırlar və sadiqliyi ilə seçilməyən bir dövlət və komanda hazırda Rusiyanın müttəfiqi statusundadır. Amma əvvəlki dövrlərdən fərqli olaraq, Rusiya tərəfindən Ermənistana qarşı hər hansı radikal addımların atılması da gözlənilmir.**

## Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**Bakı Politoloqlar Klubunun rəhbəri**

**– Ermənistan rəsmilərinin bu tədbirdə iştirakı ilk dəfə deyil. Bununla onlar kimin yanında olduqlarını göstərmiş olurlar. Nikol Paşinyan özünü daha çox Qərbin adamı kimi aparır. Qərbdəki siyasi qruplar Ermənistanı mövqeyini konkret bildirməyə sövq edirlər. Paşinyanın və komandasının addımları da bunun göstəricisidir. Təbii ki, həmin addımların Ermənistanın lehinə və əleyhinə olan tərəfləri var. Brüssel, Vaşinqton və Qərbdəki ayrı-ayrı paytaxtlar bununla İrəvanı özlərinə daha yaxın görürlər. Ancaq bu zaman Rusiya–Ermənistan münasibətləri pisləşir.**

**Eyni zamanda, Paşinyan bir tərəfdən ictimaiyyətə Qərbin yanında olduğunu göstərirsə, Ermənistanın iqtisadi baxımdan Rusiya ilə sıx bağlı olduğu görünür. Xüsusilə Qərbin sanksiyaları fonunda Ermənistanla Rusiya arasında əməkdaşlıq güclənib. Əgər belə olmasaydı, yəni Moskva tam narazı olsaydı, biz Rusiyanın Ermənistana satdığı təbii qazla, digər iqtisadi məsələlərlə bağlı daha konkret mövqeyini görə bilərdik. Odur ki, Ukrayna ilə bağlı keçirilən görüşlərdə Ermənistanın iştirakı artıq Rusiya tərəfindən qəbul edilib. İrəvan eyni vaxtda iki stulda əyləşməklə hansısa məqsədlərinə çatmaq istəyir. Ancaq əlbəttə, bu, sonadək davam edə bilməz. Bununla Paşinyan Ermənistan dövlətçiliyini ciddi risklər altında qoyur. Geosiyasi güclər arasındakı kobud manevrlərin bu və ya digər ölkələri hansı vəziyyətə saldığını unutmaq olmaz.**

# Faşist Njdeyə heykəl qoyan neonasistlərin antisemitizmi

## Sinaqoqu yandıranların "hitlerizm" sevgisi

**"İrəvanda "Ziq hayl" şüarı altında keçirilən marş-yürüş məni dərindən narahat edir. Faşistlərin əlaltısı, şovinist Garegin Njdenin mədh edilməsi, şərəfləndirilməsi heç cür qəbul edilə bilməz. Ermənistan hakimiyyəti neonasizmin və antisemitizmin istənilən formasına qarşı qəti mövqe tutmalıdır".**



Bu sözləri İsrailin Ermənistandakı səfiri Yoel Lion özünün X sosial şəbəkəsində yazıb. 2024-cü il yanvarın 1-də İrəvanın mərkəzi küçələri ilə yürüş edən neonasistlər faşist xvastikasından, hitlersayağı salamlaşmadan istifadə edərək, "Ermənistan ermənilər üçündür!" şüarını bağırıblar.

Bu barədə "Jewish Journal" jurnalında "Yəhudilər Ermənistanda antisemitizmin artmasından narahatdırlar" başlığı altında dərc olunan məqalənin müəllifi ravvin İsrael Barukdur. "Caliber.az"ın tərcümə edərək yaydığı həmin məqalənin yığcam icmalını oxucuların diqqətinə çatdırırıq.

Müəllif yazır: "Müqəddəs kitabda buyurulur: "Olanlar yenə olacaq; nə ediblərsə yenə onu edəcəklər və Günəşin altında təzə heç nə yoxdur". Antisemitizmin dünyanı bürüdüyü müasir dövrdə bu postulat xüsusilə ağrılı səslənir. Planetin müxtəlif guşələrində, böyük şəhərlərində "alovlanan" antisemitizmin çoxsaylı təzahürləri sayılan gündəlik marş, yürüş və nümayişləri müşahidə edirik. Yəhudiləri soyqırıma məruz qoymağa çağırışlar küçələrdə, məktəblərdə, universitetlərdə, hətta ABŞ Konqresində eşidilməkdədir. Məhz yəhudilərin çalışdığı müəssisələrdə vandalizm aktları törədilir, Paris və Berlin kimi böyük şəhərlərdə onların yaşadıqları evlərin qapıları, divarları Davidin altıbucaqlı ulduzu ilə "bəzədilir". Avropanın bəzi şəhərlərində isə yəhudi qəbiristanlıqları təhqir olunur, sinaqoqlar isə dağıdılır".

* * *

Ravvin İsrael Baruk məqaləsində 2023-cü il noyabrın 15-də Ermənistandakı yeganə sinaqoqa od vurulduğunu ürək ağrısı ilə qeyd edir: "İrəvandakı həmin sinaqoqa qarşı Qəzzada faciəli hadisələrə bir neçə gün qalmış – oktyabrın 3-də vandalizmə məruz qalmışdı. Bu vəhşiliyə görə məsuliyyəti öz boynuna götürən Ermənistan Məxfi Azadlıq Ordusu (ASALA) and içib ki, İsrail dövlətinin Azərbaycanla sıx dostluq əlaqələrinə görə, qisas məqsədilə bütün dünyadakı yəhudilərə qarşı hücumlarını davam etdirəcək. Bu da təəccüblü deyil. Hələ 2014-cü ildə Antidiffamasiya Liqası Ermənistanı antisemitizmə görə Avropanın ikinci ifrat neonasist ölkəsi adlandırıb.

Bundan başqa, "Pew Research Center" sosioloji tədqiqatlar mərkəzinin keçirdiyi sorğunun nəticələrinə əsasən, ermənilərin 32 faizi yəhudiləri özlərinin həmvətənləri, vətəndaşları kimi tanımırlar. Bu, Mərkəzi və Şərqi Avropa ölkələri arasında ən yüksək göstərici hesab olunur. Burada təəccüb doğuran bir şey yoxdur. Çünki ABŞ-dakı erməni qrupları, lobbiçiləri artıq neçə on ildir ki, bu ölkədə boykot, izolyasiya və sanksiyalar hərəkatında fəal surətdə iştirak edirlər və özlərinin diaspor təşkilatlarında antisemitizmin yayılması üzrə daha "qədim tarixə" malikdirlər.

Onlar İkinci dünya müharibəsi illərində də eyni siyasətə xidmət ediblər. Həmin dövrdə ermənilərdən ibarət qoşunlar Üçüncü Reyxin qulluğunda dayanıblar və yəhudi məhbusları ölüm kameralarına "marşla aparıblar". Erməni-ABŞ təşkilatları isə Hitleri açıq şəkildə "bəşəriyyətin hədiyyəsi" qismində tərifləyir, onun yəhudilərə qarşı etnik təmizləmə – soyqırımı siyasətini Almaniyanın "zərərverici elementlərdən təmizlənməsi əməliyyatı" kimi təsvir edirdilər".

Məqaləsində daha sonra erməni milli legionun lideri Garegin Njdenin hayların "baş milli qəhrəmanına" çevrilməsindən yazan ravvin Baruk Ermənistanda bu neonasistə 22 heykəl qoyulduğunu deyir: "Bu heykəllərin ən böyüyünün rəsmi açılışı 2016-cı ildə İrəvanda həyata keçirilib. "The Forward" nəşrinin araşdırmalarına əsasən, Ermənistan millətçilərə ən çox heykəl qoyulan ölkələrin siyahısında birinci yerdə gəlir.

Erməni şovinist-vandalları 1990-cı illərin əvvəllərində njdeçilərə məxsus qəddarlıqla İsrailin yaxın müttəfiqi Azərbaycanın dinc sakinlərinə qarşı kütləvi qırğınlar, soyqırımları həyata keçiriblər. İşğalçı Ermənistanın ordusunun Qarabağ bölgəsinə hücum tarixinin ən dəhşətli səhifəsi Xocalı soyqırımıdır. Bu qəsəbənin yüzlərlə dinc sakini vəhşicəsinə qətlə yetirilib, əsir götürülüb, bəziləri doğma evlərini tərk etməyə məcbur olublar. Otuz iki il bundan əvvəl erməni faşistlərinin əsir apardıqları xocalıların taleyindən bugünədək heç bir xəbər yoxdur.

Ermənilərin Xocalıya basqını da onların özlərini "ali irqə" mənsub olmalarına əsaslanan "qədim milli ideologiyası"na söykənir. Ermənistan, həmçinin müttəfiqi İranın tərəfində dayanaraq, ABŞ-da İsrailə qarşı çirkli kampaniya aparır. Ermənistan Respublikasında isə onlar yeganə sinaqoqu yandırıblar".

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Sumqayıtda veteranlarla görüş keçirilib

**Dünən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təşkilatçılığı ilə Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində veteranlarla görüş keçirilib.**



Təşkilatın sədr müavini, polkovnik Cəlil Xəlilov veteranlarımızın cəmiyyətdəki rolundan, onların üzərinə düşən vəzifələrdən danışıb. Polkovnik qeyd edib ki, veteranlar hər zaman Prezident İlham Əliyevin siyasətini dəstəkləyib, dövlət başçısının hər bir çağırışına səs verib.

Sumqayıt Şəhər Təşkilatının sədri Sovet Şükürov və başqaları çıxış edərək yaxın tarixi keçmişimizin ən mühüm hadisələrinə toxunub, ölkəmizin gələcək inkişafı ilə bağlı arzu və gözləntilərini dilə gətiriblər. Çıxış edən veteranlar ölkəmizin bundan sonra da Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında yeni uğur və nailiyyətlərə imza atacağına əminliklərini ifadə ediblər.

***XQ***

# Cənubi Qafqazın geosiyasi parçalanma riski

## III məqalə

*Azad və təhlükəsiz olmaq istəyirsənsə, güclü ol!*
**Nikolay Starikov**




### Parçalanmaya təkan verənlər

Regionun geosiyasi xarakteristikasında indiki mərhələdə həm ayrı-ayrılıqda hər bir yerli dövlətin, həm də dövlətlər birliyinin rolu böyükdür. Cənubi Qafqaz dövlətləri də öz siyasətlərinin məzmun və məqsədinə uyğun şəkildə regional geosiyasi inteqrasiyaya ya töhfə verirlər, ya da mane olurlar. Bunun fonunda region ölkələrinin birgə fəaliyyətinin də əhəmiyyətini qəbul etmək gərəkdir. Biz II məqalədə Ermənistanın üzərinə götürdüyü siyasi normativlərə əməl etməməsini məhz bu məqamlara görə, bütövlükdə regionun geosiyasi parçalanmasına təkan verə biləcəyi tezisini irəli sürmüşdük. Məsələnin politoloji izahı əhəmiyyətlidir. Çünki hazırda politoloji təlimlərdə regionların geosiyasi tamlığı məsələsini necə təmin etməyin də təhlili aparılır. O cümlədən, sualı konkret qoymaq olar: Cənubi Qafqazın geosiyasi parçalanmasına təkan verən faktorlar hansılardır?

Bu zaman bir vacib məqamı da unutmaq olmaz. Məsələ yalnız region dövlətlərinin siyasəti ilə bağlı deyildir. Burada daha çox regionda fəal olan böyük güclərin rəsmən qəbul etdikləri geosiyasi və siyasi normativlərə əməl etməsi ilə yerli dövlətlərin eyni məsələlərə münasibəti də mühüm rol oynayır. Nəzəri olaraq anlaşılan olsa da, bu məsələ reallıqda ciddi araşdırma tələb edir. Çünki dövlətin nəzərdə tutduğunu həyata keçirməsi normativlərə nə dərəcədə əməl etməsi ilə sıx bağlıdır. Cənubi Qafqaz dövlətlərinin bu istiqamətdə fəaliyyətlərini əks etdirən konkret faktlara baxaq.

### Geosiyasi və siyasi normativlər

Cənubi Qafqaz istiqamətində fəaliyyət göstərən böyük güclərin hər birinin geoiyasi və siyasi normativləri var. Onların hər biri sənəddə və bəyanatlarda regionda sülhün, barışın, əməkdaşlığın təmininə çalışdıqlarını ifadə edir. Bu, həm geosiyasi, həm də siyasi aspektdə belədir. ABŞ, Rusiya, Çin, Türkiyə, İran, Avropa İttifaqı... məhz bu xarakterdə normativlərə əməl etdiklərini bildirirlər. Lakin onların heç də hər biri verdikləri sözə və müəyyən etdikləri nəzəri normalara əməl etmir. Bununla ilk geosiyasi və siyasi təzad yaranır – böyük güclər regional siyasətlərində ardıcıl konstruktiv olmadıqlarına görə, onların buradakı mübarizələri bir sıra hallarda radikal xarakter alır və bütövlükdə, regionun geosiyasi mənzərəsində çatlar yaradır.

Bir misalda bunu göstərmək olar. Avropa İttifaqı rəsmən qəbul etdiyi siyasi normativlərdə ifadə edir ki, dünyanın hər bir yerində beynəlxalq münasibətləri "hərbi güc" əsasında deyil, "ideya, fikir, vicdan" amilləri əsasında quracaqdır. Bu prinsiplər İan Mannersin Avropa üçün hazırladığı "Normativ güc" konsepsiyasında mövcuddur. Hətta, İ.Manners həmin konsepsiyada hərbi güc tətbiqini kəskin tənqid edir və bu kontekstdə C.Nayın "yumşaq güc" anlayışı ilə Avropa yanaşması arasındakı fərqi göstərir. O vurğulayır ki, C.Nayın "yumşaq güc" anlayışı ABŞ-ın xarici siyasəti üçün hazırlanmışdır və özündə "yumşaq" və "sərt" güclərin kombinasiyasını ehtiva edir. Bu isə Aİ-yə uyğun deyil – o, bütövlükdə hərbi-siyasi və iqtisadi potensialdan deyil, "ideya", "dəyər", "ideologiya" və "vicdan" amillərindən istifadə etməlidir.

Terminlərin məzmunundan baxanda humanist, səmərəli, konstruktiv və dinc üsullara dayanan mövqedir, deyilmi? Bu, ilk baxışda çox gözəldir! Ancaq Aİnin həm təşkilat, həm də onun ayrı-ayrı güclü dövlətlərinin bu terminlər arxasında gizlənərək, atdıqları real addımlar tamamilə başqa bir mənzərədən xəbər verir. Azərbaycan və Ermənistan müstəqilliklərini əldə etdikdən sonra Avropanın Cənubi Qafqaz siyasəti həm geosiyasi, həm də ideoloji aspektlərdə başdan-ayağa ziddiyyətlidir, qeyri-ardıcıldır, qeyri-müəyyəndir və ikili standartlardan yoğrulmuşdur. Bu da Cənubi Qafqazda geosiyasi parçalanma istiqamətində güclü tektonik təsirə malikdir. Misallar çoxdur.

Keçən əsrin son onilliklərindən Ermənistanın Azərbaycana təcavüzü baş vermişdir və buna ABŞ-la bərabər Aİ də aktiv münasibət bildirmişdir. Sözdə, bəyanatlarda, diplomatik ibarələrdə "sülh" "barış, "vicdan", "qəbul edilmiş geosiyasi və siyasi normalara əməl etmək", "hüquqilik", "insan haqları" və digər gəlişigözəl terminlər dillərindən düşmürdü. Hətta, vasitəçi Minsk qrupu da yaratdılar və İ.Mannersin konsepsiyasında olduğu kimi "vicdan"la işləməyə başladılar. Hər addımda Azərbaycanın qarşısına maneə çıxardılar. Erməni təcavüzünü sözdə qınayır, lakin əməldə onu aradan qaldırmaq üçün heç bir addım atmırdılar. Azərbaycan fəallaşanda isə dərhal bəyanat verirdilər: "hərbi güc tətbiqi olmaz, çünki bu müharibənin qalibi olmayacaq"! Qısa desək, onlar çalışırdılar ki, ermənilərə tam dəstək verib, Azərbaycan torpaqlarını onlara bağışlasınlar. Açığı və qısası budur. II Qarabağ savaşından sonra özlərini aparmaları isə konkret praktikada sübut etdi ki, avropalılar da amerikalılar, ruslar və farslar kimi sözdə bir, əməldə başqa cürdürlər. Bu isə geosiyasi müstəvidə situasiyanın dərin ziddiyyətli qeyri-müəyyən mənzərəsini yaradırdı.

Fikrimizcə, məhz bu proseslər nəticəsində Cənubi Qafqazın geosiyasi parçalanması daha da şiddətləndi və barışmaz bir mühit yaratdı. Bunu Ermənistanın heç bir şərt daxilində barışa gəlməməsi göstərirdi. Onlar yalnız öz istədiklərini deyirdilər. Azərbaycanı eşitmək istəmirdilər.

Politoloji baxımdan bu proseslərin məntiqi ortaya bir sual çıxarırdı: Ermənistana "təcavüzkar ol" sözünü verməklə, ona silah verməyin arasındakı geosiyasi fərq nədən ibarətdir? Deyək ki, Rusiya ermənilərə silah və savaşçı verərək torpaqlarımızın işğalına rəvac verirdisə, Qərb bu addımı gizli dəstəkləyərək və üstəlik, siyasi-diplomatik üsulla işğalı qanuniləşdirməyə çalışaraq, eyni məqsədi güdürdülər. Bunların fərqi nədən ibarətdir? Biri birbaşa günahsız azərbaycanlıların qanını axıdan silahı faşistlərə verirdi, digəri isə bu qətliamın davam etməsinə mənəvi-ideoloji əsas yaradan fəaliyyət göstərirdi. Məqsəd baxımından hər ikisi təhlükəli və geosiyasi parçalanmaya xidmət edən üsuldur! Bu baxımdan İ.Mannersin "vicdan"ı havadan asılı qalmış boş sözdən başqa bir şey deyildir.

Məsələnin bu tərəfi 44 günlük Zəfər savaşından sonra Fransa rəhbərliyinin fəaliyyəti fonunda çox aktual görünür. Emmanuel Makron sözləri və davranışları ilə sübut etdi ki, Cənubi Qafqazda siyasi və geosiyasi normalara qətiyyən əməl etmək fikrində deyil. O, hətta, öz ərazi bütövlüyünü bərpa edən Azərbaycanın "daxildə terror" törətdiyi kimi absurd və cəfəng möqeyə yuvarlandı. İndi də Cənubi Qafqazda "demokratiya", "liberalizm" "sivil münasibətlər" qurduğunu deyən Fransa Azərbaycan mədəniyyət xadimlərinin abidələrini sökür! Təsəvvür edin, bunlar, hətta, Parisdə və digər şəhərlərdə mədəniyyətə obyektiv və insan vicdanı aspektində yanaşa bilmirlər. Fransızlar mədəniyyət abidələrinə terrorçu təfəkkürü ilə münasibət bildirirlərsə, bu, o deməkdir ki, ermənilərin Azərbaycan mədəni abidələrinə qarşı vəhşiliklər törətməsinin, dünyada misli görünməmiş barbarlıq etməsinin arxasında duran qüvvələrdən biri Fransadır. İndi bizə daha yaxşı aydın olur ki, niyə avropalılar azərbaycanlı qaçqınlardan danışmaq istəmirlər. Niyə Azərbaycanın dini-mədəni nümunələrinin dağıdılmasını qınamırlar. Onu deyək ki, Amerika avropalılardan heç də geri qalmır. Məhz Amerika rəsmiləri Azərbaycanı dini dəyərlərə dözümsüzlükdə ittiham edən sayıqlamaların müəllifləridirlər. Sözün həqiqi mənasında, bu qədər saxtakar, ikiüzlü, riyakar, ədalətsiz və vicdansız zümrə görməmişik! Özü də bu, Azərbaycanın mədəniyyət nümunələrinin dağıdılması faktlarına kar və kor olmaları fonunda xüsusi antiinsanilik, antihumanizm və antinormativi təsiri bağışlayır!

Deməli, heç də şərt deyil ki, regional geosiyasi mənzərəni parçalamaq üçün kiməsə silah satasan. Hərçənd avropalılar və amerikalılar bundan da xali deyillər. Və bu ikili standartı Ermənistana çox sayda "mülki missiya" göndərsə belə, ört-basdır edə bilməzsən.

Buradan maraqlı politoloji nəticə çıxarmaq olar. Cənubi Qafqaz istiqamətində Qərbin geosiyasi mövqeyi regionun dərindən parçalanmasına xidmət edir. Bu, o demək deyildir ki, Rusiya və ya İran ondan fərqlənirlər. Xeyr, fərq sadəcə, birinin digərindən daha "yumşaq" görünməyə çalışmasından ibarətdir.

Bu məqamdan region dövlətlərinin siyasi normativlərə münasibəti məsələsinə keçə bilərik. Ermənistan sözdə normativləri qəbul edir, əməldə isə tamam başqa addımlar atır. Uzun illər aparılan danışıqlarda erməni tərəfi masa arxasında demokratiya, barış, əməkdaşlıq və sülhdən dəm vurur, reallıqda isə yalnız öz təcavüzkarlığını möhkəmlətməyə çalışırdı. İndi aydın olur ki, bu işdə İrəvana Qərb də, Rusiya da ciddi dəstək vermişlər. Hətta Yaxın Şərqin beynəlxalq terror təşkilatlarının mühəndis-texniki və quraşdırma təcrübəsini Qarabağdakı erməni terrorçulara ötürmüşlər. Bir zamanlar ermənilərin və havadarlarının dilindən düşməyən "üçqat Ohanyan səddi" buna nümunədir. Yalnız Azərbaycan Ordusu gücü təcavüzkarın başını aşağı əydi, onu əzdi!

Ermənistan nə qədər siyasi normativlərə əməl etməyəcək, region bir o qədər geosiyasi parçalanmaya məruz olacaq! Ermənistanın sürüşkən, qeyri-müəyyən, tərəddüdlü mövqeyi hazırda Cənubi Qafqazın geosiyasi parçalanmasına imkan yaradan başlıca faktordur.

Bütün bunların fonunda müasir mərhələdə regionun geosiyasi bütövlüyünü təmin etməkdə ciddi rol oynayan bir politoloji məqama da diqqət yetirmək lazımdır. O region geosiyasi baxımdan tam və bütövdür ki, orada mövcud olan dövlətlər müharibə təhlükəsindən uzaqdır, iqtisadi və siyasi təxribatlara məruz qalmırlar. Başqaları onların daxili işlərinə qarışmırlar.

Bundan başqa, imzalanan regional müqavilələr və regional institutlar BMT-nin Nizamnaməsinin maddələrinə uyğun olmalıdır. Bu mənada region dövlətlərinin arasında uyğun sazişlər və müqavilələr imzalanmalıdır. Bu prizmada Cənubi Qafqazdakı mövcud duruma baxaq.

### Müharibə təhlükəsizliyi: uzaq, "yaşıl ada"

Çox təəssüf ki, bu, reallıqdır. 44 günlük savaşdan sonra regional böhranın yaranmamasının əsas səbəbkarı Azərbaycandır. Region bir çox tərəfdən müharibə təhdidləri ilə əhatə olunmuşdur. Yeni terror hadisələri, böyük dövlətlərin ədalətsiz addımları, reallığa uyğun olmayan bəyanatları davam edir! Son zamanlarda İranda 103 insanın həlak olması ilə nəticələnən terror aktı digər fəsadları ilə yanaşı, Cənubi Qafqazı da geosiyasi riskə atır. Çünki rəsmi Tehran bu işdə böyük geosiyasi güclərin əli olduğunu israr edir! Bu məsələnin nə qədər təhdid olaraq qalacağını proqnozlaşdırmaq çətindir. Bu vəziyyəti daha da sürüşkən edir. Hələlik əlac regionda müsbət geosiyasi rol oynayan dövlətlərə qalmışdır.

O cümlədən, Azərbaycan bütün imkanları ilə Cənubi Qafqazda geosiyasi fəlakətin istənilən formada meydana çıxmaması üçün çalışır. Ekspertlər üçün çox maraqlıdır ki, rəsmi Bakı buna necə nail olur? Hansı qətiyyət, inam və güc qaynağı ilə? Hələ də bu suallara doğru-düzgün izah tapa bilmirlər. Çünki öncədən, obyektiv olaraq, Azərbaycanın tarixi, siyasi, dövlətçilik özəlliklərini dərindən araşdıra bilməmişlər. Onlar ermənilərin, rusların, farsların, avropalıların Azərbaycan haqqında əksər hallarda uydurma və aşağılayıcı cəfəngiyatları ilə beyinlərini iflic etmişlər. Hətta o dərəcdə obyektivlik hissini itirənlər var ki, televiziya auditoriyasında deyir ki, "Dağlıq Qarabağ Ermənistanın "tam ortasında yerləşir"! Bəli, bu cəfəngiyyatın müəllifi Fransa prezidenti E. Makrondur! Doğrudanmı Fransanın prezidenti Qarabağın coğrafi olaraq harada yerləşdiyini bilmir? O Fransa ki, dünyaya M.Fuko, Q.Başlyar, J.Delyoz, P.Nora, A.Turen və çox sayda digər təfəkkür sahiblərini vermişdir! Mümkün deyildir! Ya da Qaston Başlyar bir şeydə haqlıdır. O yazırdı ki, ermənilər avropalıları şizofrenik hala gətirmişlər. Avropalılar reallıq hissini itirmişlər və erməni yalanlarına inanırlar – dünyaya bu yalanların pəncərəsindən baxırlar! Lakin yenə də... Fransanın prezidenti olan kəs... yox da!

Amma məsələ Makronla da məhdudlaşmır – daha fəlakətli olan məqamlar da vardır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Qardian": Neonasistlər savaşdan geri çəkilirlər

**Böyük Britaniyanın "Qardian" qəzetində "ABŞ-dakı neonasistlər artıq Ukraynaya dəstəyi layiqli bir iş hesab etmirlər" başlıqlı məqalə dərc olunub. Qəzetin köşə yazarı Con Kreys belə qənaətə gəlib ki, Ukraynaya hərbi yardıma mane olan respublikaçılar kimi, amerikalı sağçı ekstremistlər də vaxtilə heyran olduqları müharibədən imtina edirlər. Məqalədə qeyd olunub ki, bir vaxtlar amerikalı ekstremistlərin təyinat yeri olan Ukrayna müharibəsinin iki ili ərzində Birləşmiş Ştatlarda gizli fəaliyyət göstərən ifrat sağçı hərəkat nümayəndələri savaşdan fəal şəkildə üz döndərir və ardıcıllarına münaqişədən uzaq durmağı tövsiyə edirlər.**



Britaniyalı jurnalistin bu mövzuya toxunması təsadüfi deyil. İnternet resurslarından öyrənmək olur ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra dünyanın hər tərəfindən radikal sağçı baxışlara malik döyüşçülər savaş meydanlarına axışmışdılar. Bir çox media orqanlarında hər iki tərəfdən ekstremistlərin döyüşdüyünü təsdiqləyən foto-video materiallara da rast gəlmək mümkündür. Məsələn, Almaniyanın "Welt am Sonntag" qəzeti ötən il iyulun 29-da dərc olunmuş məqaləsində Ukraynada müharibə başlayandan bəri onlarla almanın döyüş bölgəsində savaşmağa getdiyini yazmışdı. Alman nəşri, həmçinin qeyd etmişdi ki, ümumilikdə, təhlükəsizlik orqanları "ekstremizmlə və ya siyasi motivli cinayətlərlə əlaqəsi olan" 61 nəfərin ölkədən getdiyini qeydə almışdı. "Welt am Sonntag"in məlumatına görə, ekstremistlərin 27 nəfəri Rusiya, 12-si isə Ukraynayönlü olmuşdu. Almaniya Daxili İşlər Nazirliyinin məlumatına görə, onların arasında həm sağçı, həm də solçu ekstremistlər var.

Müharibədə ABŞ-dan da çox sayda ekstremistin iştirak etməsi barədə məlumatlar yayılır. Amma son vaxtlar iddia olunur ki, amerikalı neonasistlər Ukraynanı tərk edirlər. Böyük Britaniyanın "Qardian" qəzetinin köşə yazarı Con Kreys vəziyyətlə bağlı araşdırmasında amerikalı ekstremistlərin Ukrayna müharibəsindən üz döndərmələrinin səbəblərini sadalayır. Müəllif yazır: "Ukrayna münaqişəsinin əvvəlində ABŞ Daxili Təhlükəsizlik Departamenti (DTD) kəşfiyyat bülleteni yaymışdı ki, son dərəcə sağçı amerikalı ekstremistlər Ukrayna tərəfində döyüşmək üçün Ukraynaya gedirlər və bu təcrübələrdən ABŞ-a qayıdarkən terror bacarıqlarını artırmaq üçün istifadə edə bilərlər". Nəticədə, Ukrayna ordusu dünyanın hər yerindən 20 minə yaxın muzdlu əsgəri cəlb etdi. Münaqişənin başlamasından bir neçə həftə sonra "Boogaloo Boys" adlandırılan Amerika neonasist qrupu Ukraynaya getmişdi.

Bununla belə, 2023-cü ilin noyabr ayında sosial şəbəkələrdə səsli mesajında, ABŞ-da irqçi etirazları ilə tanınan neonasist "Qanlı qəbilə" şəbəkəsinin lideri, keçmiş dəniz piyadası Kristofer Polhaus davamçılarına "uşaqlarının" Ukrayna münaqişəsinə qoşulmasına icazə vermədiyini söyləmişdi: "Mən imkan verməyəcəyəm ki, bizim uşaqların səyləri və qanı müharibəyə getsin". Amma K.Polhaus mesajında Ukraynada xalqın mübarizəsini dəstəkləməyə davam edəcəyini də bildirmişdi. Onun sözlərinə görə, şəbəkənin bəzi üzvləri "çox həvəslidirlər və bütün pullarını və resurslarını daxili fəaliyyətə, nifrət mitinqlərinə yönəldəcəklər. Eyni mesajda, K.Polhaus "Qardian" müəllifinə ABŞ-da Kiyevi dəstəkləyən sonuncu ictimai neonasist liderlərdən biri olduğunu etiraf edib. Məqalə müəllifi bildirir ki, DTD Ukraynaya gedən sağçı ekstremistləri izləməyə davam edib-etməməsi ilə bağlı çoxsaylı e-poçt sorğularına cavab vermir.

C.Kreys yazır ki, ABŞ-ın daha geniş neonasist hərəkatının bəzi üzvləri Ukraynadakı münaqişədən, hətta onların şücaətləri barədə hekayələr reallığa uyğun olmasa da, döyüşçü nüfuzunu möhkəmləndirmək üçün istifadə etdilər. Nəşr qeyd edir ki, K.Polhaus ilə işləyən və "Sümüklü üz" təxəllüsü ilə tanınan Florida ştatından olan Kent MakLellan yayda Ukraynadakı hadisələrdə iştirakı barədə yalan danışdığı üçün ifşa edilmişdi. C.Kreys, həmçinin iddia edir ki, Rusiya tərəfində də neonasistlər iştirak edirlər. Müəllif muzdlu "Vaqner Qrupu"nun həmtəsisçisi Dmitri Utkini xatırladır və onun nəinki təşkilatını Üçüncü Reyxin sevimli bəstəkarının şərəfinə adlandırdığını, həm də boynunun hər iki tərəfində "Waffen-SS" loqosunu döymə etdirdiyini diqqətə çatdırır.

Məqalədə qeyd olunur ki, müharibə Ukrayna üçün böhran nöqtəsindədir, çünki respublikaçılar Konqresdə ilk növbədə Meksika ilə cənub sərhədini möhkəmləndirmək və ABŞ-ın sığınacaq sistemində kəskin dəyişikliklər etmək tələbləri ilə Kiyevə yardımı əngəlləyirlər. Daha geniş kontekstdə ABŞ-da Ukrayna ilə bağlı müzakirələr praktik olaraq dayandırılıb, çünki Qəzza münaqişəsi və daxili problemlər bir vaxtlar dünyada geniş izlənilən bir hadisəni arxa plana keçirib. Müəllif iddia edir ki, insanları cəbhə bölgəsinə döyüş təcrübəsi üçün göndərməyin mənasız olduğunu görən, ölüm və ya geri qayıtdıqdan sonra həbs olunma riski çox yüksək olduğunu anlayan, amerikalı sağçı ekstremistlər Ukraynanı potensialı az olan münaqişə kimi görürlər.

Sentyabr ayında ABŞ-ın dağılmış neonasist terror qrupu "Atomvaffen Division" ilə əlaqəli məşhur sağçı nəşr bildirmişdi ki, Ukraynadakı münaqişə "artıq bizim üçün əhəmiyyətli deyil": "Dünyanın yarısından uzaqda, evdə daha aktual məsələlər olduğu halda müharibə haqqında məlumat vermək, açığı bizim maraqlarımıza uyğun deyil". Məqalə müəllifi yazır ki, bu, respublikaçı prezidentliyə namizədlər - Donald Tramp, Ron DeSantis və Vivek Ramasvaminin müharibəni uzaq problem kimi xarakterizə edən bəyanatlarını xatırladan bir əhval-ruhiyyədir. Ancaq cəmi 5 il əvvəl Ukrayna ifrat sağçı ekstremistlər üçün münbit təlim meydanı kimi görünürdü. Bununla bağlı C.Kreys maraqı məlumatları da paylaşır: "Beynəlxalq neonasist təşkilatı "Baza"nın yaradıcısı, Pentaqonun sabiq podratçısı Rinaldo Nazzaro öz qrupunun gizli iclasında bildirmişdi ki, Ukraynadakı münaqişəni "potensial öyrənmə fürsəti" kimi qiymətləndirir. Ancaq indi R.Nazzaro qəzetə açıqlamasında bildirib ki, "üzvləri Ukraynada həyatlarını riskə atmadan başqa bir yerdə adekvat təlim tapa bilərlər". Müəllif əlavə edir ki, "Baza"nın keçmiş üzvlərindən biri, Rayan Burçfild isə 2019-cu ildə ultramillətçi yaraqlılara qoşulmaq üçün Ukraynaya getmişdi. Onun gəlişindən az sonra Ukrayna kəşfiyyatı Burçfildi və başqa bir amerikalını terror fəaliyyətinə görə deportasiya etmişdi.

Məqalədə vurğulanır ki, hüquq-mühafizə orqanlarının təhdidi də Ukraynaya getməyə çalışan sağçı ekstremistlər üçün əsas maneə rolunu oynayır. C.Kreys belə qənaətə gəlir ki, Skandinaviya, Polşa, Belarus və Rusiyadan olan sağçı millətçilər cəbhə xəttində xidmət ediblər. Amma indi ekstremistlər üçün münaqişəyə qoşulmağın real perspektivi praktiki və maddi-texniki çətinliklərlə yanaşı, həyat və sağlamlıq üçün də yüksək risk yaradır. Digər tərəfdən, Avropa neonasistləri üçün münaqişə artıq astanadadır: "Nəzarətsiz rus imperializmi hələ də qitədəki millətçi hərəkatlar tərəfindən təhdid olaraq görülür. Onlar hesab edirlər ki, amerikalılar və onların hərəkatının ingilisdilli üzvləri Kremlin təbliğat maşınının reallığından xəbərsizdirlər".

Beynəlxalq terrorla mübarizə mərkəzinin baş elmi işçisi və proqram rəhbəri Kasper Rekavekin sözlərinə görə, "Biz münaqişəyə onlayn heyranlığı bəzi ultrasağçı bölmələrin Ukrayndakı döyüş əməliyyatlarında real iştirakları ilə qarışdırırıq". Rekavek deyib ki, avropalılarla müqayisədə amerikalı ekstremistlərin hərbi münaqişəyə qoşulmalarında əsas maneələr məsafə və dil baryeridir: "Ora uzaqdır, ünsiyyət də tanış olmayan dildədir və orada soyuqdur".

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Mərkəzi Seçki Komissiyasının iclası



Məzahir Pənahovun sədrliyi ilə yanvarın 13-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən verilən məlumata görə, əvvəlcə Komissiyanın 2024-cü il yanvarın 9-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparılması üçün İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz əsaslarla qanunvericilikdə nəzərdə tutulandan artıq həcmdə ayrılmış efir vaxtının bölgüsü məqsədilə püşkatma komissiyasının yaradılması, püşkatmanın keçirilməsi yerinin və vaxtının müəyyən olunması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra ödənişsiz əsaslarla efir vaxtının bölgüsü məqsədilə Mərkəzi Seçki Komissiyasının 3 üzvündən və Katibliyin Media və kommunikasiya şöbəsinin müdirindən ibarət tərkibdə püşkatma komissiyasının yaradılması və püşkatmanın 2024-cü il yanvarın 15-i saat 14:00-da Mərkəzi Seçki Komissiyasının inzibati binasında keçirilməsi qərara alınıb.

İclasda, bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər də olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçisi, namizədi qeydə alınmış siyasi partiyanın məşvərətçi səs hüquqlu komissiya üzvü və media nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə baxılıb.

***XQ***

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 yanvar tarixli iclas protokolunun təsdiq edilməsi barədə

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı***

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 yanvar tarixli iclasının protokolu təsdiq edilsin.

*Sədr* ***Məzahir PƏNAHOV***
*Katib* ***Arifə MUXTAROVA***
*Katib* ***Mikayıl RƏHİMOV***

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatma komissiyasının yaradılması, püşkatmanın yeri və vaxtının müəyyən olunması haqqında

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı***

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 77.2-ci maddəsinə görə prezidentliyə qeydə alınmış namizədlərə, namizədləri qeydə alınmış siyasi partiyalara verilişləri Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan ictimai teleradio verilişləri təşkilatları seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmağa borcludurlar.

Seçki Məcəlləsinin 80.4-cü maddəsinə əsasən seçkiqabağı təşviqat müddəti başlandıqdan sonra bir həftə müddətində, qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyaların verdikləri ərizə əsasında həmin Məcəllənin 80.7-ci maddəsinə uyğun olaraq ayrılmış pulsuz efir vaxtının bölgüsü məqsədi ilə püşkatma keçirilir.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparmaq üçün İctimai Televiziya və Radio Yayımları Şirkətinin ayırdığı ödənişsiz efir vaxtının prezidentliyə qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar arasında bərabər şərtlərlə və bərabər həcmdə bölgüsü məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında (bundan sonra – Mərkəzi Seçki Komissiyası) püşkatma komissiyası yaradılmalı, püşkatmanın yeri və vaxtı müəyyən edilməli, bu barədə məlumat rəsmi dərc olunmalı və maraqlı subyektlər məlumatlandırılmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74-cü, 75-ci, 80.1-ci, 80.4-cü, 80.6-cı və 80.7-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparmaq üçün İctimai Televiziya və Radio Yayımları Şirkətinin ayırdığı ödənişsiz efir vaxtının prezidentliyə qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar arasında bərabər şərtlərlə və bərabər həcmdə bölgüsü məqsədilə Mərkəzi Seçki Komissiyasında aşağıdakı tərkibdə püşkatma komissiyası yaradılsın:

- Almas Qəhramanlı – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Fuad Cavadov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Qabil Orucov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Şahin Əsədli – Mərkəzi Seçki Komissiyası Katibliyi Media və kommunikasiya şöbəsinin müdiri.

2. Püşkatma Mərkəzi Seçki Komissiyasının inzibati binasında 2024-cü il yanvarın 15-i saat 14.00-da keçirilsin.

3. Bu barədə məlumat rəsmi dərc edilsin və maraqlı subyektlər məlumatlandırılsın.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr* ***Məzahir PƏNAHOV***
*Katib* ***Arifə MUXTAROVA***
*Katib* ***Mikayıl RƏHİMOV***

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı***

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Şahin Ülkər oğlu Şükürov 19 saylı Nərimanov birinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

2. Fəxri Tofiq oğlu Əliyev 19 saylı Nərimanov birinci, Dilarə Məmməd qızı Hüseynova 73 saylı Masallı-Cəlilabad seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

*Sədr* ***Məzahir PƏNAHOV***
*Katib* ***Arifə MUXTAROVA***
*Katib* ***Mikayıl RƏHİMOV***

# Azərbaycan növbəti dəfə demokratik seçki nümunəsi göstərəcək

**Müsahibimiz Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarovadır**



**– Arifə xanım, növbədənkənar Prezident seçkilərində prezidentliyə namizədlərin müəyyənləşməsi prosesi başa çatıb, namizədlər arasında mübarizəyə start verilib. Seçkilərdə əsas məsuliyyət və səlahiyyət sahibi olan Mərkəzi Seçki Komissiyası seçki kampaniyasının bundan sonrakı mərhələsində hansı məsələlərə daha çox diqqət yetirəcək?**

– Mərkəzi Seçki Komissiyasının 2023-cü il 8 dekabr tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilib. 2023-cü il dekabrın 9-dan namizədliyin irəli sürülməsi prosesi başlanıb. Ötən dövrdə 17 nəfərdən 5-nin prezidentliyə namizədliyi siyasi partiya tərəfindən, 12-si isə öz təşəbbüsü ilə irəli sürülüb. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin subyektlərin hər birinin müraciətini təmin edərək onların namizədliklərini təsdiq edib. Daha sonra namizədin müdafiəsi üçün imzaların toplanılması məqsədilə onlara lazım olan saydan artıq imza vərəqələri verilib, lakin prezidentliyə iddialı olanlardan yalnız 7 nəfər, yəni 5-i siyasi partiya, 2-si isə öz təşəbbüsü ilə irəli sürülən namizədlər tələb olunan imzaları toplayıb və imza vərəqələri ilə birlikdə digər sənədləri də MSK-ya təqdim edib.

Komissiya qanunda nəzərdə tutulmuş qaydada həmin sənədləri araşdırdıqdan sonra namizədləri qeydə alıb və artıq seçki kampaniyasının namizədliyin irəli sürülməsi və qeydə alınması mərhələsi başa çatıb.

Seçki prosesinin önəmli mərhələlərindən biri namizədlərin təşviqat kampaniyasıdır. Qanunvericiliyə görə bu proses səsvermə gününün, ən azı, 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Namizədlərin təşviqatı qanunvericiliyin tələbləri əsasında müxtəlif üsullarla həyata keçirilir. Bu üsullara televiziya, radio, media vasitələri, kütləvi tədbirlər daxildir.



Seçki Məcəlləsinin tələbinə görə, namizədlər ölkə ərazisində yayımlanan televiziya və radiolarda həftədə 6 saat pulsuz təşviqat aparacaqlar. Təbii ki, bu prosesi MSK-da yaradılmış püşkatma komissiyası müəyyənləşdirəcək. Media vasitələrində isə təşviqat həmin qəzetlərlə namizədlərin səlahiyyətli nümayəndələri arasında razılaşdırılmış şəkildə püşkatmadan sonra başlana bilər. Bu sahə üzrə də MSK-da ciddi hazırlıq işləri görülür.

Artıq seçkiqabağı təşviqat tədbirləri çərçivəsində görüşlər üçün şəhər və rayonlarda 125 seçki dairəsi üzrə 139 açıq, 139 qapalı yer müəyyənləşdirilib və həmin siyahı artıq mətbuatda dərc edilib. Prezidentliyə qeydə alınmış namizədlər və namizədləri qeydə alınmış siyasi partiyalar həmin yerlərdən bərabər əsaslarla ödənişsiz istifadə edə bilərlər. Bu məqsədlə digər yerlərdən də qanunvericiliyə uyğun şəkildə istifadə etmək mümkündür. Ümumiyyətlə isə təşviqatın qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası üzərinə düşən bütün vəzifələri qanunda nəzərdə tutulmuş qaydada və müddətdə yerinə yetirir.

**– Seçkilərdə “exit-poll”ların keçirilməsi, beynəlxalq və yerli müşahidəçilərin iştirakı diqqət çəkən məqamlardandır. Növbədənkənar Prezident seçkisinə müşahidəçilərin böyük maraq göstərəcəyi də istisna deyil. Bu sahədə vəziyyət necədir?**

– Seçkilərdə şəffaflığın təmin olunması məqsədi ilə həm yerli, həm də beynəlxalq müşahidəçilərin seçki prosesini izləmələri üçün MSK hərtərəfli şərait yaradıb. Hazırda həm MSK-da, həm də müvafiq dairə seçki komissiyalarında müşahidəçilərin qeydə alınması prosesi davam edir. Seçki qanunvericiliyinin tələbinə görə, “exit-poll” keçirmək istəyən təşkilatlar səsvermə gününə, ən azı, 20 gün qalmış Mərkəzi Seçki Komissiyasına müraciət etməlidirlər. Komissiya isə səsvermə gününə 10 gün qalmış onları qeydə alır.

Seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc edildikdən sonra vətəndaşlar, siyasi partiyalar və seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları müşahidə aparmaq hüququnu əldə etmək üçün müvafiq seçki komissiyalarına müraciət edirlər. Respublika üzrə müşahidə aparmaq istəyən subyekt MSK-ya müraciət edir, komissiyadan lövhəcik alır və ölkə üzrə müşahidə aparmaq hüququ əldə edir.

Seçki dairəsinin ərazisində müşahidə aparmaq istəyində olan subyektlər isə müvafiq dairə seçki komissiyalarına müraciət etməlidirlər. Belə müşahidəçilər yalnız həmin dairə seçki komissiyasının əhatə etdiyi seçki məntəqələrində müşahidə aparmaq hüququna malikdirlər. Onlar digər seçki dairəsinin məntəqələrində müşahidə apara bilməzlər.

Seçkilərin keçirilməsi haqqında qərar dərc edildikdən sonra müşahidəçi olmaq üçün Mərkəzi Seçki Komissiyasına müraciət edənlərin ardı-arası kəsilmir. Eləcə də beynəlxalq müçahidəçilərin sayı dürmadan artır. İndiyə qədər qeydiyyatdan keçən müşahidəçilərin sayı 25 mindən artıqdır. Bu qaydada davam etsə, müşahidəçilərin sayı daha çox olacaq.

Ümumiyyətlə, növbədənkənar prezident seçkiləri beynəlxalq aləmdə böyük əks-səda doğurub. Bu da ölkəmizin qısa müddətdə dünya birliyində böyük nüfuz qazanması, xüsusilə, Vətən müharibəsində əldə etdiyi parlaq Qələbə və ötən ilin sonunda Qarabağda aparılan bir günlük antiterror tədbirlərindən sonra ərazi bütövlüyümüzün tam təmin olunması ilə əlaqədardır. Gündəlik məlumatlara əsasən, həm yerli, həm də beynəlxalq müşahidəçilərin sayı getdikcə artır.

**– Son 30 ildə ilk dəfədir ki, seçkilər Azərbaycanın bütün ərazilərini əhatə edəcək. İşğaldan azad edilmiş ərazilərdə seçkiqabağı hansı işlər görülüb?**

– Əslində, bu suala cavab verməyin özü çox qürurvericidir. Xalqımızın böyük səbirsizliklə gözlədiyi gün nəhayət, yetişdi. Ermənilərin 2 əsrlik düşmənçilik siyasətinə son qoyuldu və 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız azad edildi. Artıq keçmiş məcburi köçkün olan soydaşlarımız doğma ata-baba yurdlarına qayıdırlar. Həmin ərazilərdə hər cür şəraiti olan mənzillər tikilib soydaşlarımıza verilir. Bu, əlbəttə, hər bir azərbaycanlıda qürur yaradır.

Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq seçkilər ölkənin bütün ərazisində keçiriləcək. Doğma yurdlarından didərgin salınmış soydaşlarımız vaxtilə məskunlaşdıqları ərazilərdə seçkilərdə iştirak ediblər, səs veriblər. Amma növbədənkənar prezident seçkilərində onların öz doğma ata-baba yurdlarında səs vermələrinin təmin edilməsi unudulmaz tarixi hadisədir. Mərkəzi Seçki Komissiyanın səsvermənin yeri və vaxtı barədə müəyyənləşdirdiyi bildirişdə işğaldan azad edilmiş ərazilərin adının olması qürurverici haldır. Hətta bu bildirişlər vasitəsilə işğaldan azad edilmiş ərazilərdə, dədə-baba yurdlarında səs verəcək soydaşlarımızı təbrik də etdik.

İşğaldan azad edilmiş ərazilərimizdə 26 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələr çox yüksək səviyyədə lazımi avadanlıq və ləvazimatla təchiz edilib. Qürurverici məqamlardan biri də odur ki, həmin ərazilərdə yaradılan seçki məntəqələri digərlərinə nisbətən daha yaxşı məkanlarda yerləşməklə, tam təminatlıdır və seçicilərin səsverməsi üçün əlverişli səratdə fəaliyyət göstərəcək. Çünki həmin məntəqələr hər cür infrastrukturu olan yeni binalarda yaradılıb. Bir daha vurğulamaq istəyirəm ki, Mərkəzi Seçki Komissiyası həmin məntəqələrə xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, seçki ilə bağlı bütün texniki avadanlıqlar və müvafiq sənədlər həmin məntəqələrə vaxtında çatdırılır.

Fevralın 7-də keçiriləcək seçkilərdə bu ərazilərdəki seçki məntəqələri təkcə yerli yox, həm də beynəlxalq müşahidəçilərin diqqət mərkəzində olacaq. Məntəqələrdə müşahidə aparmaq qanunauyğun şəkildə təmin olunduğu üçün beynəlxalq müşahidəçilər istədikləri vaxt həmin məntəqələrə gedib proseslə tanış ola biləcəklər.

**– Seçkinin mütəşəkkil keçirilməsində, şübhəsiz, maarifləndirmənin rolu böyükdür. Bu sahədə görülən işləri necə qiymətləndirərdiniz?**

– Seçkilərin azad, ədalətli, insidentsiz keçirilməsində və şəffaflığın təmin olunmasında maarifləndirmənin xüsusi rolu var. Bu məsələ daim MSK-nın diqqət mərkəzindədir. Hər dəfə seçki ərəfəsində geniş maarifləndirmə tədbirlərinin keçirilməsinə xüsusi önəm verilir. İndiyə qədər müxtəlif mövzularda xeyli maarifləndirilmə tədbirləri keçirilib. Növbədənkənar prezident seçkilərinin daha səmərəli keçirilməsi üçün reallaşdırılan mühüm maarifləndirmə layihələrindən biri MSK-nın Ali Məhkəmə və Apellyasiya məhkəmələri ilə birgə layihəsi çərçivəsində keçirilən və seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan seminarlardır.

Yanvarın 8-də Bakıda, 10-da isə eyni vaxtda Gəncə, Naxçıvan, Şəki və Şirvanda gerçəkləşdirilən tədbirlərin başlıca hədəfi seçki mübahisələrinin həlli istiqamətində dairə seçki komissiyalarının məlumatının artırılması, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi idi. Bakıda layihənin açılışında və ilk seminar-müşavirədə MSK sədri və Ali Məhkəmənin sədri giriş nitqi söylədilər.

MSK üzvləri və Katibliyin struktur bölmələrinin əməkdaşları, region üzrə apellyasiya məhkəmələrinin sədr və hakimləri, eləcə də dairə seçki komissiyaları sədrlərinin iştirakı ilə keçirilən tədbirlərdə MSK, Ali Məhkəmə və regional apellyasiya məhkəmələrindən olan təmsilçilərin seçki mübahisələrinin məhkəmə qaydasında həllinə dair müxtəlif mövzularda təqdimat və çıxışları dinlənildi. Belə tədbirlərin keçirilməsinin effektlivliyi seçkilər keçirilən zaman daha qabarıq görünür.

MSK-nın ekspert qrupunun üzvləri Hüquq və İnsan Haqları İnstitutu ilə birgə Bakı, Sumqayıt, Gəncə, Şəki, Masallı və Naxçıvanda dairə seçki komissiyalarının ekspertləri üçün seçki hüququnun pozulmasına dair müraciətlərə baxılmasına həsr olunan regional seminarlar da keçirdi. Seminarlarda vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılması, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsi diqqət mərkəzində oldu.

Daxili İşlər Nazirliyi ilə birlikdə keçirilən tədbirin də əhəmiyyətini qeyd etmək istərdim. MSK Daxili İşlər Nazirliyi ilə birgə yanvarın 9-dan etibarən Bakı, Gəncə, Şəki, Şirvan və Naxçıvanda müvafiq olaraq polis əməkdaşları üçün regional seminar-müşavirələr keçirdi. Layihə seçki prosesində polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədi daşıyırdı. Həmin tədbirdə polisin seçki günü üzərinə düşən vəzifənin icrasından söhbət getdi. Qanunvericilik seçki ilə bağlı hər bir orqanın üzərinə müvafiq vəzifələr qoyub.

Çalışırıq ki, hər dəfə seçki keçiriləndə maarifləndirmə tədbirləri çərçivəsində hüquq- mühafizə orqanı əməkdaşları ilə müvafiq tədbirlər həyata keçirək. Seçki Məcəlləsinin tələbinə görə, polis səsvermə məntəqəsindən 100 metr kənarda olmalıdır. Əgər sçeki məntəqəsində yaranmış mübahisəni məntəqə seçki komissiyasının sədri aradan qaldıra bilmirsə, o zaman yaxınlıqda olan polis əməkdaşı məntəqə seçki komissiyası sədrinin dəvəti ilə məntəqəyə daxil olur.

Bununla belə, polis səsvermə günü seçki məntəqəsinə ancaq seçici kimi daxil ola bilər. Başqa halda, polisin seçki məntəqəsinə daxil olub nəzarət etməsi qanunla qadağandır. Tədbirdə səsvermədən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə seçki komissiyasına və MSK-ya gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsindən də bəhs olunub.

Hazırda maarifləndirmə tədbirləri davam edir. Bu günlərdə Xarici İşlər Nazirliyi ilə birgə tədbirimiz nəzərdə tutulub. Bildiyiniz kimi, növbədənkənar prezident seçkilərində xaricdə yaşayan seçicilərimiz – həmvətənlərimiz səsvermə hüququndan istifadə etməlidirlər. Bu məqsədlə xarici ölkələrdəki səfirliklərdə, konsulluqlarda seçki məntəqələri təşkil edilir.

Səhiyyə Nazirliyi ilə də birlikdə maarifləndirmə tədbiri keçirməyi planlaşdırırıq. Xəstəxanalarda, pansionatlarda, sanatoriyalarda seçki məntəqələri yaradılıb. Digər bir tədbirimiz isə Ədliyyə Nazirliyi ilə birgə olacaq. Çünki qanunla cəzaçəkmə müəssisələrində cəza çəkən şəxsin səsvermə hüququ var. Bu insanlar namizəd ola bilməzlər, ancaq səsvermədə iştirakları onların konstitusiya hüququdur.

Onu da qeyd edim ki, hazırda bir çox inkişaf etmiş ölkələrdə cəzaçəkmə müəssisələrindəki şəxslərin səsvermə hüququ yoxdur. Ancaq Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi yüksək səviyyədə təsbit olunduğu üçün hər seçkidə cəzaçəkmə müəssisələrində seçki məntəqəsi yaradılır və burada cəza çəkənlərin səsvermə hüququ təmin edilir.

Əlavə olaraq bildirim ki, MSK-da hazırda dairə seçki komissiyalarının trenerləri üçün treninqlər keçirilir və belə tədbirlər növbəti günlərdə yerlərdə məntəqə seçki komissiyalarının üzvləri üçün də keçiriləcək.

İlk dəfədir ki, Mərkəzi Seçki Komissiyası və “ASAN xidmət”in birgə layihəsi çərçivəsində prezident seçkiləri ilə bağlı “ASAN xidmət” mərkəzlərində yeni layihə gerçəkləşdirilib. Mərkəzlərdə olan “ASAN növbə” terminallarına “Seçici statusunu yoxla” adlı funksional bölmə əlavə edilib. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd olunan yerdə oxudaraq adlarını seçici siyahılarında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Burada qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında da məlumatlar əldə etmək mümkündür.

Göründüyü kimi, seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası bütün imkanlardan səmərəli istifadə edir. Bütün bunların nəticəsi olaraq, Azərbaycan dünyaya növbəti dəfə demokratik seçki nümunəsi nümayiş etdirəcək.

***Müsahibəni apardı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Avropanın 8 ölkəsi Azərbaycan qazı ilə isinir



(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, ötən il Azərbaycandan Avropa bazarlarına 11,8 milyard kubmetr qaz ixrac olunub. Bütövlükdə isə, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəmərinin istismara verildiyi 2020-ci il dekabrın 31-dən ötən müddətdə ölkəmiz "köhnə qitə"dəki tərəfdaşlarına təqribən 31,5 milyard kubmetr təbii qaz göndərib. Avropa məkanına ixrac etdiyimiz qazın həcmi çox olmasa da, bu, ölkəmizin ümumi ixracının yarısıdır. Bununla belə, Prezidentimizin qeyd etdiyi ki, Azərbaycan qazının ixrac coğrafiyası, həqiqətən də, ölkəmizin Panavropa təchizatçısı olduğunu təsdiq edir.

Yeri gəlmişkən, ötən il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya–Bolqarıstan qaz interkonnektorunun açılış mərasimində Azərbaycan Prezidentinin iştirak etməsi ölkəmizin Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında getdikcə artan rolunun təzahürüdür. Xatırladaq ki, Serbiya Azərbaycan qazının sayca 8-ci alıcısıdır. Bundan əvvəl isə ölkəmiz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya və Macarıstana qaz ixrac edib.

Heç şübhəsiz, XXI əsrin ən nəhəng enerji marşrutlarından sayılan Cənub Qaz Dəhlizinin Avropanın enerji xəritəsinin zənginləşdirilməsində rolu danılmazdır. Çünki Azərbaycanın "Şahdəniz" yatağından çıxarılan "mavi yanacaq" məhz Cənub Qaz Dəhlizinin qolları olan interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə Avropa ölkələrinin ərazisinə daxil olur. Təsadüfi deyil ki, dövlətimizin başçısı yerli televiziya kanallarına müsahibəsi zamanı Yunanıstan–Bolqarıstan və Bolqarıstan–Serbiya, eləcə də Rumıniya və Macarıstan interkonnektorlarını Cənub Qaz Dəhlizinin budaqları, təkanverici qüvvəsi kimi dəyərləndirib.

Hazırda Cənub Qaz Dəhlizinin indi tam gücü ilə işlədiyini bildirən Prezident İlham Əliyev bildirib ki, əgər bu dəhlizlə biz əlavə qaz həcmini göndərmək istəsək, onda o, gərək genişləndirilsin. Bunun üçün əlavə vəsaitin tələb olunacağı isə şəksizdir. Cənub Qaz Dəhlizinin nasos stansiyaları vasitəsilə genişləndiriləbiləcəyini vurğulayan dövlət başçısı müsahibəsində onu da qeyd edib ki, Avropada "mavi yanacağ"a tələbatın getdikcə artdığı indiki şəraitdə gələcəkdə Azərbaycanda yeni qaz infrastrukturunun yaradılması məsələsinə də baxıla bilər.

Azərbaycanın Avropanın əsas qaz tədarükçüsü kimi əhəmiyyətinin getdikcə artacağını vurğulayan Prezident İlham Əliyev hazırda bir neçə ölkə ilə danışıqlar aparıldığını diqqətə çatdıraraq gələcəkdə alıcılarımızın sayının coxalacağını bildirib. Bunun üçün isə ölkəmizin kifayət qədər qaz ehtiyatları var. Bu baxımdan dünyanın ən böyük qaz-kondensat yatağı olan "Şahdəniz"in rolu xüsusi qeyd olunur. Eyni zamanda, 2023-cü ildə istismara daxil edilmiş "Abşeron" yatağının birinci işlənmə mərhələsi çərçivəsində bu il 1,5 milyard kubmetr qaz hasil olunacağı proqnozlaşdırılır. Cari ilin sonunadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda "Dərin qaz" adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq.

Heç şübhəsiz, ölkəmizin potensialı sadaladımız yataqlarla kifayətlənmir. Məlum olduğu kimi, bu il "Abşeron" qaz yatağının ikinci mərhələsi ilə bağlı yekun investisiya qərarının verilməsi nəzərdə tutulur. Bu layihənin reallaşdırılması ilə "Abşeron" yatağında illik hasilatın həcmi 5 milyard kubmetrə çatdırılacaq. Bununla yanaşı, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan" və "Qarabağ" yataqlarının da potensialı olduqca yüksək qiymətləndirilir. Ölkə Prezidenti məlum müsahibəsində bu məqama toxunaraq deyib ki, mən vaxtilə 100 il bundan sonra da Azərbaycanın tərəfdaşlar üçün önəmli ölkə olacağı ilə bağlı fikir bildirəndə məhz bunu nəzərdə tuturdum: "Əlbəttə ki, bu, bizim böyük nailiyyətimizdir. Bu, bizə böyük dividendlər gətirir, həm iqtisadi, həm də təbii ki, siyasi. Çünki sirr deyil ki, qaz amili enerji təhlükəsizliyi nöqteyi-nəzərindən ön plandadır. Bizim üstünlüyümüz məhz ondadır ki, biz böyük yatırım qoyaraq müasir qazpaylayıcı şəbəkə yaratmışıq. Resurs bazamız kifayət qədər böyükdür və artacaq. Avropada tələbat da mütləq artacaq. Çünki onlar nə qədər yaşıl enerjiyə keçid etmək istəsələr, yenə də təbii qaza ehtiyacları olacaq".

Sonda bir məqamı da qeyd edək ki, Avropa ölkələrinin "yaşıl keçid" kimi xarakterizə etdikləri mədən yanacağından imtina edilməsini nəzərdə tutan proqrama baxmayaraq, uzunmüddətli perspektivdə qazdan və neftdən tam imtina edilməsi gözlənilmir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın karbohidrogen ehtiyatları hələ uzun illər Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oyanayacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.**

# Özəl bölmə iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib

## Hazırda 759 mindən çox insan sahibkarlıqla məşğuldur

Sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması vacib şərtlərdir. Ona görə də daim sahibkarların hamisi kimi qətiyyətli qərarlar qəbul edən dövlətimizin başçısının müvafiq tapşırığı əsasında həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır, dövlət strukturları, ayrı-ayrı nazirliklər fəaliyyətlərində bu məqama mühüm önəm verirlər.

Bütün bunlar barədə "Dövlət–sahibkar tərəfdaşlığı: Dayanıqlı iqtisadiyyatın əsası" mövzusunda keçirilən konfransda ətraflı bəhs edilib. Tədbirdə əvvəlcə son 20 ilin iqtisadi göstəricilərinə diqqət yetirilərək bu dövrdə ümumi daxili məhsulun (ÜDM) illik real dəyərinin 3,6 dəfədən çox artdığı, ölkədə adambaşına düşən ÜDM-in dəyərinin isə 769 dollardan 7 min 798 dollara yüksəldiyi bildirilib. Eyni zamanda, qeyri-neft-qaz ÜDM-nin illik dəyərinin 4,1 milyard dollardan 41,1 milyard dollara, ölkənin xarici ticarət dövriyyəsinin illik dəyərinin isə 9,5 dəfədən çox artaraq 50 milyard dollara çatdığı vurğulanıb.

Azərbaycanda 20 il ərzində böyük maliyyə ehtiyatları formalaşıb və nəticədə, iqtisadi və maliyyə təhlükəsizliyinin əsas dayaqlarından olan strateji valyuta ehtiyatları 42,8 dəfədən çox artaraq 2023-cü ilin sonuna 68,5 milyard dollara yüksəlib. Təbii ki, belə bir şəraitdə xarici borclanmadan da asılılıq azalıb. Nəticədə 2003-cü ildə xarici borcun ÜDM-də payı 21,6 faiz təşkil etdiyi halda, 2022-ci ildə 10 faiz az olub. Dövlətin strateji inkişaf kursunun uğuru nəticəsində Azərbaycan yuxarı orta gəlirli ölkələr qrupunda yer alıb.

Hazırda qlobal çağırışlar fonunda ölkəmizdə yaradılan makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyat şaxələnir, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilir.

Respublikada reallaşdırılan islahatlar beynəlxalq maliyyə təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Dövlət-sahibkar münasibətlərinin uğurla gerçəkləşdirilməsi, biznes fəaliyyətinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi davam etdirilir. Bunlarla bərabər, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, tətbiq olunan güzəştlər və stimullar, işgüzar əlaqələrin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında qeyri-dövlət sektorunun payı hazırda 86,5 faiz, məşğulluqda isə 78 faiz təşkil edir.

Azərbaycanda sahibkarlığın inkişafına dövlət dəstəyi daim diqqətdə saxlanılıb. Son 20 ildə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinin 45 min 600-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 3 milyard manatdan çox güzəştli kredit verilib. Bunun sayəsində maliyyələşdirilən layihələr həsabına 176 mindən çox yeni iş yerinin açılmasına nail olunub. 2023-cü ildə isə bu sektorda 2 min 840 layihəyə 147 milyon manat vəsait ayrılıb. Bu, 2022-ci illə müqayisədə 28 milyon manat çox olub.

Sahibkarlığın inkişafından danışarkən onu da xatırladaq ki, Azərbaycanda 2016-cı ildən etibarən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 585 layihə təşviq olunub. Həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılması, 38 mindən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyə qədər dəyəri 1,1



milyard dollara qədər texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə gətirilib və müasir istehsal sahələri qurulub, yeni məhsullar buraxılan müəssisələr yaradılıb.

Hazırda ölkədə sahibkarlıq subyektlərinin 99,6 faizini mikro, kiçik və orta sahibkarlıq (KOB) subyektləri təşkil edir. Lisenziyaların və icazələrin alınmasının sadələşdirilməsi sahibkarlıq fəaliyyətinin səmərəliliyini şərtləndəndirir. Bu prosesi sadələşdirmək üçün İqtisadiyyat Nazirliyi dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyaların "ASAN xidmət" mərkəzləri və "KOB evləri" vasitəsilə verilməsini davam etdirir.

Bütün bunlarla bərabər, lisenziya və icazələrin elektron qaydada "Lisenziyalar və icazələr" portalı vasitəsilə verilməsi daim diqqət mərkəzində saxlanılıb. Müasir dövrün qlobal çağırışlarının nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, sahibkarlıq sahəsində yoxlamalar 2025-ci ilədək dayandırılıb, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilib. Həmçinin lisenziyanın verilməsinə görə dövlət rüsumları 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyanın verilməsi prosedurları sadələşdirilib, "Lisenziyalar və icazələr" portalı yaradılıb və hazırda 23 fəaliyyət növü üzrə elektron lisenziyaların verilməsinə başlanılıb.

Yeri gəlmişkən, son illər sahibkarlığın inkişafına davamlı dəstək nəticəsində qeyri-neft-qaz ixracı sahəsində də coğrafi şaxələnmə ilə yanaşı, məhsul çeşidlərinin şaxələnməsi üzrə uğurlu nəticələr əldə olunub. Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək və digər layihələr də ixracın artımını stimullaşdırıb. Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının təqdim olunduğu 11 ticarət, 4 şərab və 4 ticarət evinin bölmələri fəaliyyət göstərir.

Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 759 mindən çoxdur.

***Vaqif BAYRAMOV***
***XQ***

# Kiçik və orta biznesə 371 mindən çox xidmət göstərilib

**İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, 2023-cü ildə bu qurumun tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) məxsus KOB evlərində sahibkarlara 371 min 304 xidmət göstərilib.**

Məlumata görə, bunun 77,6 faizini və yaxud 288 mindən çoxunu Bakı,16,4 faizini və yaxud 61 mindən çoxunu Yevlax, 5,9 faizini və yaxud 22 minə yaxınını isə Xaçmaz KOB evi təmin edib.

Xidmətlərin 349 min 785-ni dövlət qurumları, 21 min 519-nu isə özəl qurumlar göstərib. Sahibkarların KOB evlərində göstərilən xidmətlərdən məmnunluq səviyyəsi 98 faiz təşkil edib.




***XQ***

# İnvestisiya Şirkəti 109 layihəyə baxıb

**İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, ötən il "Azərbaycan İnvestisiya Şirkəti"ndə (AİŞ) 109 yeni investisiya layihəsinə baxılaraq müvafiq təhlillər aparılıb.**



Məlumatda, eyni zamanda, bildirilir ki, hesabat ilində ümumi investisiya dəyəri 560 milyon manat təşkil edən 8 layihə AİŞ-in Müşahidə Şurası tərəfindən təsdiqlənib. Sözügedən layihələrdə AİŞ-in iştirak payı 42 milyon manat məbləğində nəzərdə tutulub. Layihələrin icrası nəticəsində yeni istehsal sahələrinin yaradılması və 600 nəfərin daimi işlə təmin olunması planlaşdırılıb.

Hazırda AİŞ xarici və yerli tərəfdaşlarla birlikdə müxtəlif sektorları əhatə edən ümumi investisiya dəyəri 2,7 milyard dollara yaxın 24 layihənin təhlilini aparır. Bu layihələr müxtəlif sənaye sahələrini, o cümlədən yaşıl və alternativ enerji, qida sənayesi, əczaçılıq, kimya sahələrini əhatə edir.

AİŞ 2023-cü ildə Azərbaycan – Özbəkistan İnvestisiya Fondunun yaradılmasında da fəal iştirak edib. Bununla bağlı müvafiq saziş 24 fevral 2023-cü il tarixində Daşkənd şəhərində imzalanıb və həmin ilin iyulun 20-də qüvvəyə minib. Bundan başqa, "Azərbaycan – Özbəkistan İnvestisiya Şirkəti"nin yaradılması haqqında Saziş 18 iyul 2023-cü il tarixində Şuşa şəhərində imzalanıb və ölkə Prezidentinin 14 oktyabr 2023-cü il tarixli sərəncamı ilə təsdiqlənib. Ümumi kapitalı 500 milyon dollar olan həmin şirkət artıq Özbəkistanda qeydiyyatdan keçib.

***XQ***

# Bu il 2 günəş stansiyası tikiləcək

**Energetika Nazirliyinin məlumatına əsasən, bu ilin sonunadək ölkəmizdə ümumi gücü 760 MVt olan 2 günəş elektrik stansiyasının (GES), gələn il isə 240 MVt gücündə 1 külək elektrik stansiyasının (KES) tikintisi planlaşdırılır.**



Məlumatda, həmçinin vurğulanır ki, Birləşmiş Ərəb Əmirlikləri ilə imzalanan elektrik enerjisinin ötürülməsi üzrə investisiya əməkdaşlığına dair Anlaşma Memorandumu, yaşıl enerji sahəsində Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi və 1 QVt gücündə günəş və külək layihələrinin inşası üçün Yol Xəritəsi "yaşıl dünya" naminə həmrəyliyimizin təzahürü olmaqla "yaşıl enerji" tərəfdaşlığımızı daha da möhkəmləndirəcək.

***XQ***

# İnvestisiya təşviqi sadələşdirilib

**İqtisadiyyat Nazirliyinin yaydığı məlumatda Azərbaycanda investisiya təşviqi sənədinin alınması üçün tələblərin yumşaldıldığı bildirilib. Bununla bağlı qurumun kollegiyasında "İnvestisiya təşviqi sənədinin alınması üçün ərizənin forması"nda dəyişiklik edilib.**

Nazir Mikayıl Cabbarovun imzaladığı yeni qərara əsasən, bundan sonra sahibkarlara investisiya təşviqi sənədinin verilməsi üçün onların vergi ödəyicisi kimi uçota alınmaları haqqında şəhadətnamənin surəti tələb edilməyəcək.

Nazirliyin hüquq şöbəsinə adıçəkilən bu qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil olunması üçün Ədliyyə Nazirliyinə təqdim edilməsi tapşırılıb.



***XQ***

# Elektrik enerjisi istehsalı artıb

**2023-cü ildə Azərbaycanda 29 milyard 276,6 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu da əvvəlki ilə nisbətən 272,3 milyon kilovat-saat və ya 0,9 faiz çoxdur.**

Bu barədə energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib. Nazirin sözlərinə görə, ötən il elektrik enerjisinin ixracı 3 milyard 252,5 milyon kilovat-saat, idxalı isə 211,8 milyon kilovat-saat təşkil edib.

P.Şahbazov onu da qeyd edib ki, il ərzində istilik elektrik stansiyalarında 27 milyard 160,4 milyon kilovat-saat, su da daxil olmaqla bərpaolunan enerji mənbələrində isə 2 milyard 116,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.



***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 1** **Bakı şəhəri, 8 yanvar 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 dekabr tarixli 238 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bütün növ radiovericilərin və digər radiotezlikli qurğuların yaratdığı radiomaneələrin qarşısının alınması Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 dekabr tarixli 238 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1237 (Cild I) ilə təsdiq edilmiş "Bütün növ radiovericilərin və digər radiotezlikli qurğuların yaratdığı radiomaneələrin qarşısının alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bənddə "qanuni" sözü "icazəli" sözü ilə əvəz edilsin.

**2.** 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. Müraciətlərdə maneə təsirinə məruz qalan radiotezlik nominalı (və ya radiotezlik zolağı), maneənin təsir müddəti, ərazi, maneə təsirinə məruz qalan avadanlıq və ya şəbəkə haqqında məlumatlar, həmçinin maneənin ehtimal olunan istiqaməti və xarakteri bildirilir.".

**3.** 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. Xüsusi təyinatlı telekommunikasiya şəbəkələrinə və ümumistifadəli radiorabitə şəbəkələrinə təsir edən maneələr barədə müraciətlərə təxirəsalınmadan, digər müraciətlərə isə aşağıdakı müddətlərdə baxılır:

3.1.1. radiomaneə mənbəyinin axtarışı tələb olunmadığı halda 5 iş günündən gec olmayaraq;

3.1.2. radiomaneə mənbəyinin axtarışı tələb olunduğu halda 10 iş günündən gec olmayaraq, axtarışın çətin şəraitdə aparıldığı halda isə müraciətə baxılması müddəti 21 iş günədək artırıla bilər. Bu halda müraciətçiyə 2 iş günündən gec olmayaraq rəsmi və ətraflı məlumat verilir;

3.1.3. radiomaneə barədə müraciət ölkə və yaşayış məntəqələri üzrə müxtəlif əraziləri əhatə etdiyi və ya respublikadan kənarda müəyyənləşdirildiyi halda 30 iş günündən gec olmayaraq.".

**4.** 3.2-ci bənd ləğv edilsin.

**5.** 3.4.1-ci yarımbənddə "qəbuledicidə" sözü "radioqə-buledicidə, radioelektron vasitəsində" sözləri ilə əvəz edilsin.

**6.** 3.4.2-ci yarımbənddə "qəbuledici qurğularında" sözləri "radioqəbuledici qurğularında və ya radioelektron vasitələrində" sözləri ilə əvəz edilsin.

**7.** 3.4.3-cü yarımbəndin birinci abzasında "qəbuledicilərdə" sözü "radioqəbuledicidə, radioelektron vasitəsində" sözləri ilə, ikinci abzasında "qəbuledici və ya anten-fider qurğularını" sözləri "radioqəbuledici qurğularını, radioelektron vasitələrini və ya anten-fider qurğularını" sözləri ilə əvəz edilsin.

**8.** 4.1-ci bəndin ikinci cümləsində "qanuni" sözü "icazəli" sözü ilə əvəz edilsin və həmin bəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Əgər radiomaneə mənbəyi respublikadan kənarda aşkar olunarsa, radiomaneələr barədə zəruri məlumatların aidiyyəti rabitə administrasiyasına çatdırılaraq maneələrin aradan qaldırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi məqsədilə Dövlət Radiotezliklər İdarəsi tərəfindən Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin 10 saylı Əlavəsi və ya ölkələrlə ikitərəfli razılaşma sənədlərində nəzərdə tutulmuş müvafiq formalara uyğun müraciət hazırlanaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim olunur və bu barədə müraciətçiyə rəsmi və ətraflı məlumat verilir.".

**9.** 4.2.3-cü yarımbənddə "yetirilə bilər" sözləri "yetirilir" sözü ilə əvəz edilsin.

**10.** 4.3-cü bənddə "araşdırılmalı" sözü "araşdırılır" sözü ilə, "verilməlidir" sözü "verilir" sözü ilə əvəz edilsin.

**11.** Aşağıdakı redaksiyada 4.7- 4.10-cu bəndlər əlavə edilsin:

"4.7. Dövlət Radiotezliklər İdarəsinin nümayəndələrinin ehtimal edilən radiomaneə mənbəyinin yerləşdiyi dövlət idarə, təşkilat və müəssisələrinin ərazilərinə onların tabe olduqları dövlət orqanlarının razılığı ilə, sahibkarlıq subyektlərinin ərazisinə isə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən daxil olması üçün maneə təsiri yaratması ehtimal edilən qurğunun sahibi və ya maneə təsiri yaratması ehtimal edilən qurğunun yerləşdiyi ərazinin sahibi tərəfindən şərait yaradılır və müvafiq tədbirlər görülür.

4.8. Beynəlxalq və dövlət əhəmiyyətli tədbirlər və idman yarışları üçün istifadəsinə icazə verilmiş radiotezliklərə radiomaneə təsiri yaradan qurğunun fəaliyyəti Dövlət Radiotezliklər İdarəsi tərəfindən həmin qurğunun sahibinə verilmiş göstərişə (şifahi və ya yazılı) əsasən ən geci bir saat ərzində dayandırılır.

4.9. Radiomaneə təsiri Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin 5-ci maddəsinin 5.2-ci bəndi ilə müəyyən olunmuş radiotezliklərin idarəolunması üzrə Azərbaycan Respublikasının da daxil olduğu birinci region ölkələri üçün Radiorabitə Reqlamentinin həmin maddəsinin dördüncü bölməsində nəzərdə tutulmuş tezlik bölgüsünə uyğun şəkildə istifadə olunmayan qurğudan (o cümlədən qeyri-standart qurğudan) yarandığı təqdirdə həmin qurğunun istifadəsinin təxirəsalınmadan dayandırılması qurğunun sahibindən tələb olunur və standartlara uyğun analoji qurğu ilə əvəz edilməsi qurğunun sahibinə tövsiyə edilir.

4.10. Televiziya və radio yayımlarına radiomaneə təsiri ilə bağlı müraciətlərə baxılarkən Dövlət Radiotezliklər İdarəsi tərəfindən teleradio yayım şirkətlərinin və infrastruktur operatorunun həmin işlərə cəlb olunmasına yol verilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 2** **Bakı şəhəri, 11 yanvar 2024-cü il**

**"Satınalmalara cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin təsdiq edilməsi və "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 118 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Satınalmalara cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi" təsdiq edilsin (əlavə olunur).

**2.** "Dövlət satınalmalarına cəlb olunan vəzifəli şəxslərin Davranış Kodeksi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 552 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 4** **Bakı şəhəri, 11 yanvar 2024-cü il**

**"Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dəftərxana ləvazimatlarının satın alınması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi Qaydası"nın təsdiq edilməsi və "Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 yanvar tarixli 8 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dəftərxana ləvazimatlarının satın alınması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 66 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 3** **Bakı şəhəri, 11 yanvar 2024-cü il**

**"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2343 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1546 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 mart tarixli 90 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada verilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 5** **Bakı şəhəri, 11 yanvar 2024-cü il**

**"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.16-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsində nəzərdə tutulmuş halların satınalma müqaviləsinə təsirinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 mart tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 541 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

**Ötən ilin sosial uğurları**

# Hər iş yeri bir ailənin "çörək ağacı"dır

**2023-cü ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən 118 min 398 şəxs münasib işlə təmin olunub. 17 min 362 nəfər isə özünüməşğulluq proqramına cəlb edilib. Proqramın əhatə dairəsi daha da genişləndirilərək 13 yeni zərf yaradılıb. 18 zərfin tərkibi isə dəyişdirilərək təkmilləşdirilib. Bunu Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli ötən ilin yekunları ilə bağlı XQ-nin suallarını cavablandırarkən bildirdi. Qurum rəhbəri daha sonra dedi:**

– Ötən il özünüməşğulluq tədbirlərini dəstəkləyən yerli və beynəlxalq tərəfdaşlarla "Məşğulluğa dəstək layihəsi", "Özünüməşğulluğa dəstək", "Səyyar kofe evləri", həmkarlar ittifaqları ilə özünüməşğulluğa dəstək, "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması", "Kəndlərdə heyvandarlıq sahəsində ailə biznesinin və özünüməşğulluğun inkişafı", "Potensial ABAD-çılara dəstək", "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı – 2023", "Qarabağ KOB-ları" layihələri icra edilib.

Dövlət–özəl tərəfdaşlığı əsasında peşə hazırlığı kurslarının əhatəsi də ötən il genişləndirilib, əməkdaşlıq edilən müəssisələrin sayı 130-a çatıb. İllik 960 nəfərin peşə kursu keçməsinə imkan verən Qarabağ Peşə Hazırlığı Mərkəzi istifadəyə verilib: "Bununla da agentliyin peşə hazırlığı mərkəzlərinin sayı 4-ə çatıb. Peşə hazırlığına cəlb edilən 9 min 518 nəfərin 81 faizi işlə təmin olunub.



Bakı və bölgələrdə, ümumilikdə, 129 əmək yarmarkası keçirilib. 1809 işəgötürən 22 mindən çox iş yeri təqdim edib. İl ərzində 281 min 539 şəxsə peşəyönümü məsləhət xidmətləri göstərilib. İkinci dəfə Peşələr festivalı, Karyera İnkişaf Forumu və İnsan Resursları Zirvəsi keçirilib".

**M.Abbasbəyli əməkhaqqının birgə maliyyələşməsi proqramından söz açaraq 315 işəgötürənlə əməkdaşlıq müqaviləsinin imzalandığını, 1198 şəxsin işlə təmin olunduğunu diqqətə çatdırdı:**

– Keçən il 8 min 370 şəxsə işsizlikdən sığorta ödənişi təyin edilib. Qeyd edim ki, işsizlikdən sığorta ödənişinin təyin olunması şərtləri ötən ilə nisbətən bir qədər də yumşaldılıb. Belə ki, müddətli əmək müqaviləsinin bitməsi səbəbindən işdən azad olunan şəxslər üçün tələb olunan sığorta stajının müddəti 30 aydan 24 aya endirilib. Məşğulluq sahəsində xidmətlərin rəqəmsallaşdırılması davam etdirilib. 2022-ci ilin may ayında istifadəyə verilən "Əmək və məşğulluq" altsistemi ötən il yenilənib. "Məzunların məşğulluq reytinqi" platforması istifadəyə verilib. Ölkənin 11 aparıcı universitetinin məzun məlumatları altsistemdə yerləşdirilib. İşsizlikdən sığorta ödənişi almaq




hüququ olanların elektron reyestri yaradılıb və altsistemə daxil edilib.

Qurum rəhbəri Böyük Qayıdış proqramına uyğun olaraq, agentliyin gördüyü işlər barədə də məlumat verdi:

– İlkin mərhələdə işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulan 129 min 300 nəfərin siyahısı üzrə təhlillər aparılıb. Artıq köç etmiş şəxslərdən 1138 nəfərin məşğulluğu təmin edilib. Həmin ərazilərdə fəaliyyət göstərən 250-dən çox işəgötürənlə əlaqələr qurulub. 70-dək işəgötürənin kadr ehtiyaclarının ödənilməsinə dəstək göstərilib, 2 işəgötürənin əməkdaşlarının əməkhaqları birgə maliyyələşdirilib.

Ötən ilin noyabr ayından həmin ərazilərdə əmək yarmarkalarının təşkilinə də başlanıb. İlk əmək yarmarkası Füzulidə təşkil olunub. Orada 20 işəgötürən tərəfindən 200 vakansiya təqdim edilib. Laçında keçirilən əmək yarmarkasında isə 16 işəgötürən tərəfindən 200 vakansiya təqdim edilib. Bu aktiv məşğulluq tədbiri işğaldan azad olunan digər ərazilərimizdə də keçiriləcək.

Postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 20 min 596 şəxs aktiv məşğulluq proqramlarına, o cümlədən 10 min 354 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Ötən il agentliyin beynəlxalq əməkdaşlıq əlaqələri daha da genişlənib, qurum 2 beynəlxalq təşkilata üzv seçilib, "Business Awards UK" müsabiqəsinin qalibi və bir beynəlxalq müsabiqənin ("SDC Awards") isə finalçısı olub.

Agentliyin sədri sonda cari ildə də qurumun 27 funksional fəaliyyət istiqamətini özündə birləşdirən 5 sahə üzrə işlərin davam etdiriləcəyini, fəaliyyət istiqamətlərinin daha da təkmilləşdiriləcəyini vurğuladı.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Ortaq mədəniyyətimiz

# Özbək xalqının musiqisi

IV yazı

**Özbəklər Mərkəzi Asiyada ən böyük türkdilli xalqdır. Tarixçilərin qənaətinə görə, özbəklərin ən qədim əcdadları prototürklər və türklər olub. Orta Asiyanın türk və Şərqi İran dialektlərində danışan yerli oturaq və maldar əhali həmin qövmlərin törəmələri hesab olunur. İki dildə danışan qəbilələrin qarışması prosesi özbək xalqının başlanğıcını qoymuşdur.**



Özbək xalqının formalaşmasında və inkişafında XIV-XVI əsrlərdə Əmir Teymur tərəfindən yaradılan böyük imperiyanın müstəsna rolu olmuşdur. Bu imperiya 1370-1507-ci illər arasında mövcud olmuş və Teymurilər, Gürkanilər və ya Turan adını daşımışdır. Teymurilər dönəmində tarixi Türküstan və Xorasan əraziləri İslam mədəniyyəti, incəsənəti və memarlığı baxımından ən parlaq dövrlərindən birini yaşamışdır.

İmperiyanın paytaxtı Səmərqənd şəhəri məhz bu dövrdə əsl intibaha qovuşmuş, dünyanın hər yerindən buraya mahir sənətkarlar köçürülmüşdür. Əmir Teymur və davamçılarının dövründə inkişaf edən sənətkarlıq və elm səbəbindən bu dövr Teymuri renesansı olaraq xatırlanmaqdadır.

Əmir Teymurun sarayında Əbdülqadir Marağayi kimi dahi musiqiçi fəaliyyət göstərərək məqam sənətinin gur inkişafını təmin etmişdir. Bunun nəticəsidir ki, özbək musiqisində maqom (özbəklər öz dil xüsusiyyətlərinə uyğun şəkildə məqama maqom deyirlər) ənənəsi intişar etmiş, sonralar böyük xanlıqlar dövrünü yaşamış Buxara şəhərində onun Şaşmaqom kimi məxsusi orijinal forması meydana gəlmişdir. Bu maqomlar UNESCO-nun bəşəriyyətin qeyri-maddi sərvətləri siyahısında yer almışdır.

Hazırda Özbəkistan Respublikası paytaxtı Daşkənd şəhəri olmaqla əhali sayına görə (35 milyon) türk dünyasının ikinci böyük dövlətidir. Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Əfqanıstan və Tacikistanla həmsərhəddir. Səmərqənd, Buxara, Xivə, Kokand, Şəhrisəbz kimi qədim şəhərlərində çoxsaylı memarlıq abidələri vardır və onlar Şərq mədəniyyətinin nadir inciləri siyahısındadır. `Bu sırada Səmərqənddə yerləşən Registan meydanı, Bibixanım məscidi, Uluqbəy rəsədxanası və məqbərəsi, Şahi Zində məqbərəsi, Əmir Teymurun və nəslinin uyuduğu Gur-Əmir mavzoleyi, Şəhrisəbzdə Əmir Teymurun Ağ Sarayının adları çəkilməlidir.

Bibixanım məscidi islam aləmində və Mərkəzi Asiyada yerləşən ən böyük məscidlərdən biridir. Mərkəzi Asiyanın müqəddəs şəhəri adlandırılan Buxarada isə 140 memarlıq abidəsi var. Onların bir çoxu, eyni zamanda 1997-ci ildə və 2500 illiyi qeyd olunmuş Xivə şəhərindəki İçan-Qalası UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmişdir.

Başqa türk xalqlarında olduğu kimi, özbək ənənəvi musiqisi də iki böyük təbəqəyə –folklor (xalq yaradıcılığı) və şifahi ənənəli professional yaradıcılığına (makomlar və digər inkişaflı formalar) ayrılır. Öz növbəsində xalq yaradıcılığı daşıdığı funksiya və mövcud formalarına görə iki böyük qrupa bölünür və hər bir qrup səciyyəvi cizgilərə malikdir.

Birinci qrupa müəyyən şəraitdə və müəyyən vaxtda ifa olunan mahnılar və instrumental havalar daxildir. Bura əmək, mərasim, beşik mahnıları, müxtəlif adət-ənənələr, kütləvi tamaşalar zamanı ifa olunan instrumental havalar daxildir. İkinci qrupa isə hər zaman və hər yerdə ifa olunan janrlar – terma, koşuk, lapar, yalla, aşulə və həmçinin analoji planda müxtəlif instrumental pyeslər daxildir. Çoxcəhətli məhəbbət lirikası, tarixi mövzu, satira və yumor, ictimai etiraz bu janrlardan hər birinin əsasını təşkil edə bilər. Buna baxmayaraq, həmin janrlar musiqi məzmununun səciyyəvi ifadə vasitələri ilə bir-birindən fərqlənir.

Onu da qeyd etmək lazımdır ki, ötən yüzilliklər ərzində Özbəkistanın hazırkı ərazisi müxtəlif xanlıqlara (Xivə, Buxara, Kokand) parçalandığına görə bu vəziyyət musiqidə öz izini üslub müxtəlifliyində biruzə vermişdir: əhalinin fərqli həyat tərzi, sosial-iqtisadi durumu və etnik tərkibi xalq və professional musiqidə dörd əsas lokal üslubun əmələ gəlməsini şərtləndirmişdir.

Özbək əmək mahnıları məzmun, poetik mətn və üslub baxımından kifayət qədər müxtəlifdir: maldarlıq, əkinçilik, sənətkarlıqla bağlı, eləcə də qadınların ev əməyini təsvir edən mahnılar vardır ki, bunlarda lirik düşüncələr və arzular, şikayət və etiraz motivləri də yer alıb.

Özbək xalqının musiqi-poetik irsində epik rəvayətlər – dostanlar və ya dastanlar (bu söz özbək dilində iki cür tələffüz olunur) xüsusi yer tutur. Bu dastanlar arxaik türk folkloru və özbək tarixi əsasında yaranmışdır. Başqa sözlə, onlar həm qədim müştərək türk mədəni ənənələrini, həm də özbək xalqının formalaşma yaddaşını, düşüncə tərzini, taleyini və mənəvi-estetik ideallarını özlərində cəmləyiblər.

Özbək xalq dastanlarının təsnifatında ilk pillədə qəhrəmanlıq ("Alpamış", "Yadqar) dastanları durur. Onların mənşəyi və əsası patriarxal-tayfa münasibətləri, uzaq keçmişdə köçəri və yarımköçəri həyat tərzi sürmüş özbək xalqının həyatı, məişəti, adət-ənənələri ilə sıx bağlıdır.

Özbək dastan yardacılığının sonrakı inkişafı roman səciyyəli dastanlarla bağlıdır ki, onlar ya döyüş ("Yusif və Əhməd"), "Əlibək və Balıbək") qəhrəmani-romantik ("Tənha-Əhməd", "Rüstəm"silsiləsi, "Qoroğlu" silsiləsi), sevgi-məhəbbət ("Kuntuqmış", "Ravşan", habelə Xarəzm dastanları), ictimai-məişət ("Sahibkıran", "Arzugül", "Şirin və Şəkər") və nəhayət, kitab dastanları ("Fərhad və Şirin", "Leyli və Məcnun", "Bəhram və Güləndan" və s) kimi bir-birindən fərqlənirlər. Gördüyümüz kimi, Özbəkistanda digər türk xalqlarında məşhur olan dastanlar (məsələn, "Alpamış", "Qoroğlu", "Avazxon", "Rovşan", "Oşik Qarib") kimi geniş yayılmışdır.

Özbək dastanlarını iki növə ayırırlar: 1) məzmunu başdan-başa reçitativ hekayət üslubunda dinləyicilərə çatdırılan dastanlar. 2) yalnız monoloq və dialoqları (nəzm hissləri) oxunan, qalan nəsr hissələri isə danışılan dastanlar. Adətən özbək epos ifaçıları ikisimli -dartma musiqi aləti olan dombranın müşayiəti ilə oxuyurlar.

Şifahi ənənəli özbək musiqisində mərkəzi yeri, bir sıra Şərq, o cümlədən türk xalqlarında – Anadolu türkləri, azərbaycanlılar, uyğurlar və türkmənlərdə olduğu kimi, məqam ənənəsinin özünəxas təzahürü olan maqomlar – vokal instrumental pyeslər silsiləsi tutur.

Bu, bir həqiqtədir ki, özbək xalqının musiqi mədəniyyəti Yaxın Şərq və Mərkəzi Asiya xalqlarının mədəniyyət və incəsənətinin ayrılmaz tərkib hissəsi idi. VI-VII əsrlərdə yaşamış əfsanəvi musiqiçi, şair və musiqi nəzəriyyəçisi Barbədin (müxtəlif dillərdə və şivələrdə Borbad, Fəhləbad, Paxlabad və s. kimi səslənir) zəngin irsi Turan və İran xalqlarının musiqi tarixində xüsusi əhəmiyyət daşımış və onun sənəti klassik şairlərin yaradıcılığında kifayət qədər vəsf olunmuşdur.

Məlumdur ki, Barbəd Yaxın Şərqin ilk və bəlkə də ən peşəkar musiqiçisi kimi musiqi tarixinə düşmüşdür. Onun musiqi irsində 360 oxunan hava, 30 instrumental melodiya, həmçinin kosmoloji təsəvvürlərin özünəməxsus təzahürü kimi 7 "xosrovani" də var ki, bu da ilin 360 günü, 30 həftəsi və həftənin 7 günü ilə bağlı olub.

Orta əsrlərdə Yaxın və Orta Şərq musiqisində formalaşmış "On iki məqam" – mürəkkəb və çoxtərkibli musiqi-nəzəri bir sistem idi. Klassik məqamlar saray musiqisində mühüm yer tuturdu və şəhər mədəniyyətinin təzahürü kimi inkişaf edirdi. Teymurilərin dövründə məqam formaları musiqi yaradıcılığında geniş intişar tapır. O dövrün tarixi xronikaları, Səmərqənddə məşhur musiqiçi-alim Əbdülqadir Marağayinin fəaliyyəti, XIV-XVII əsrlərdə yazılmış musiqi risalələri bunu sübut edir.

Özbək xalqının musiqi alətləri rəngarəngliyi ilə diqqəti cəlb edir. Burada bütün alətlər qrupu – simli, nəfəsli və zərb alətləri təmsil olunmuşdur ki, bu da alətlərin bütün növlərini və funksiyalarını özündə cəmləşdirir. Onlardan çoxu türk xalqlarının, habelə taciklərin və bir sıra Şərq xalqlarının musiqi alətləri ilə eyni və ya oxşardır.

Simli alətlər qrupu daha zəngindir. Bu qrupa – mizrablı (tambur, dombra, dutar, əfqan rubabı, qaşqar rubabı), zərbli (çəng), kamanlı (kobuz, giçak, sato) simli alətlər daxildir.

Özbək xalq çalğı alətləri arasında nəfəs alətləri qrupu çox geniş təmsil olunmuşdur. Bunların arasında qamış, sümük və ağac nəfəsli alətlər xüsusi yer tutur: nay və onun növləri – sibizik, koşnay, balaman, surnay və s.

Özbəklərin zərb alətləri simli və nəfəs alətləri kimi, Şərq və o cümlədən türk xalqları üçün ümumi alətlərdəndir. Onlar özbək xalqının musiqi təcrübəsində mühüm yer tutur. Doyra, həmçinin naqora aləti çox istifadə olunur. Özənsəsli safoil, koşik, kayrak kimi alətlər nisbətən az yayılmışdır.

*Lalə HÜSEYNOVA,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*

Türk hökmdarları

**İldırım Bəyazid (1360-1402) Osmanlı tarixinin 4-cü sultanıdır. O, "ildırım" ləqəbini döyüşlərdə göstərdiyi cəldliyə, şücaətə görə qazanmışdı. Erkən yaşlarından müxtəlif döyüşlərə qatılmışdı. Gələcəyin sultanı təkcə döyüşkən deyil, həm də yaxşı təhsil almışdı. Mənbələrdə latın dilini mükəməl bildiyi xüsusi qeyd olunur.**

# "İldırım" niyə Ankarada çaxmadı

Atası Sultan I Muradın qisasını Miloş Obroneviçdən alaraq edam etdirmişdi. Bununla bərabər qardaşı Yaqub Çələbini də aradan götürmüşdü. Buna səbəb Yaqubun atasının vəsiyyətinin əleyhinə çıxması idi. Osmanlı səltənətində taxt-taca görə ilk dəfə qardaş qətli baş vermişdi.



Bəyazid xaç yürüşlərinə qarşı qətiyyətlə mübarizə aparmışdı. Bu baxımdan Bizans dövləti ondan ehtiyat edirdi. Bizans imperatoru II Manuel bu narahatlığını məktublarında ifadə etmişdi. Bizans öz əndişələrində haqlı idi. Çünki Bəyazid beş dəfə Bizans paytaxtını mühasirəyə almışdı. Lakin iki dəfə fəthə ən yaxın anda nədənsə mühasirədən imtina etmişdi.

Tarixçi Əhməd Anapalının fikrinə görə, İstanbulu Bəyazidin zamanında almaq mümkün deyildi. Osmanın o dövrdə kifayət qədər güclü silahları yox idi. O silahlar yalnız əlli il sonra olacaqdı.

Bəyazid təkcə Qərbə yürüşlər təşkil etməkdə qalmamış, dövlət qurumlarını möhkəmlətməyə də çalışmışdı. İlk növbədə Anadoludakı müxtəlif bəyliklərlə mübarizə aparmışdı. Onun ləğv etdiyi bəyliklərdən birinin başçısı isə şair Qazi Bürhanəddin idi. Bayazid Qazini hərb meydanında məğlub edə bilməsə də, diplomatik yolla bu proplemi həll etmişdi. Bununla da, hakimiyyətini möhkəmləndirə bilmişdi.

Tarixi mənbələr Bəyazidin ədalətli insan olduğuna şahidlik edirlər. Bir gün sultanın məhkəmədə şahidlik etməsi lazım imiş. Bursa qazısı Molla Şəmsəddin Fənari bu şahidliyə etiraz edərək belə demişdir: "Sənin şahidliyin keçmir. Çünki sən camaat namazını qılımırsan. Əlində imkanın olaraq bu namazlara qatılmamağın sənin şahidlik etməyinə imkan vermir". Bu sözləri eşidib sultan məhkəməni tərk etmişdi. Ondan sonra məhkəmənin yanında məscid tikdirərək orada camaat namazlarını qılmışdı. Osmanlı tarixçisi Aşiq Paşazadənin yazdığına görə, Bəyazid hər cümə günü yoxsullara sədəqə paylatdırırdı.

Bəyazid dövlətçilik məsələsində nikah diplomatiyasından da istifadə etmişdi. O, Serb kralının qızı Olivera ilə evlənmişdi. Lakin bu addım onu içkiyə və kef məclislərinə yönəltmişdi. Bəyazidin içkiyə "məğlub olması" Ankara savaşının (1402) taleyinə də təsir etmişdi. Döyüş öncəsi Solak Qaraca ona belə demişdir: "Ey Bəyazid xan, hanı güvəndiyin oğulların, sərxoş vəzirlərin?". Xalq içkiyə aludəçiliyinə görə Bəyazidə beləcə tənə edirdi.

Qara Yusifin İldırım Bəyazidə sığınması Ankara müharibəsi üçün bəhanə oldu. Tarixçilər Əmir Teymuru təmkinli, İldırım Bəyazidi isə çılğın bir şəxs kimi qiymətləndirirlər. Ankara savaşında həmçinin iki psixoloji əhval-ruhiyyə toqquşmuşdu. Bu ovqat onların bir-birinə göndərdiyi məktublarında da əksini tapmışdı.

Təəssüf ki, 1402-ci ildə Ankara yaxınlığında tarixdə türk dünyasının birliyinə böyük zərbə vuran ağır döyüş baş vermişdi. Teymur döyüşdə ac və döyülmüş fillərdən istifadə etmişdi. Qəzəbli fillər Bəyazidin əsgərlərini əzmişdi.

Burada bir məqama aydınlıq gətirmək lazımdır. Teymurun Bəyazidi qəfəsə saldırması iddiaları yalandır. Bu yalanı o dövrün tarixçisi İbn Ərəbşah uydurmuşdu. Əksinə, Teymur döyüşdən sonra Bəyazidin şəxsiyyətinə hörmət bəsləmişdi, yanından ayırmamışdı. Bəzi tarixçi qaynaqlara görə, Bəyazid acı məğlubiyyət səbəbindən keçirdiyi ağır həyəcana dözməyib həyatını itirmişdi.

*Ceyhun MİRZƏLİ,*
*kulturoloq*

# Tarixə hökm etmiş uyğurlar



**Türk dünyasının ayrılmaz parçası olan uyğurlar Çin Xalq Respublikasının ərazisində yaşayırlar. Uyğur dili altay türk dilləri ailəsinə məxsusdur. İki əsrə yaxın Mərkəzi Asiya və Çinin bir hissəsinə hökmranlıq etmiş Göytürk imperiyasının süqutundan sonra Uyğur Xaqanlığının əsası qoyulmuşlar. Bu imperiya sonradan qırğızların hücumu ilə dağıdılmışdır.**

Birinci Uyğur imperiyasının parçalanmasından sonra bölgəyə sahiblənən mancurlar 100 ildən çox buranı əsarətdə saxladılar. Bu yüz ildə 42 dəfə ölüm-dirim mübarizəsinə qalxan uyğurlar, nəhayət ki, Uyğur dövlətini qurdular. Rusiya, Osmanlı, Böyük Britaniya imperiyaları yeni qurulan dövləti tanısalar da, Çin-Mancur qoşunları ingilislərin köməyi ilə Uyğur dövlətini devirdilər və ölkənin adını Şərqi Türküstan deyil, Şincan (indiki Sintzyan) adlandırdılar. İşğal edilən Uyğur dövlətinin ərazisi indiki Qazaxıstandan da böyük idi.

Ötən yüzilin 40-cı illərinin ikinci yarısından bu yana Şərqi Türküstanda 30 milyondan çox türkəsilli xalqlar (qazaxlar, qırğızlar, özbəklər və çox sayda uyğurlar) yaşayır. Ümumdünya Uyğur Kongresinin məlumatlarına əsasən, 2010-cu ilin sonuna uyğurların ümumi sayı 21 milyon nəfər olub.

Uyğur dilində hazırda qəzet və jurnallar çıxır. Əvvəlcə ərəb əlifbasında yazırdılar, sonra kirili qəbul etdilər, bir arada latına keçdilər, sonra təzədən ərəb əlifbasının hərfləri əsasında uyğur dil intonasiyasına uyğun olaraq əlifba yaratdılar. Bu gün sözügedən əlifbaya yazırlar. Dəqiq elmlər, informasiya texnologiyaları, təbabət, ədəbiyyat, tarix sahəsində tanınmış alimləri var. Uyğur teatrı, mədəniyyət evləri və dərnəkləri fəaliyyət göstərir.

Tarixdən maraqlı bir fakt. Dünya ilk çap maşının alman İohann Qutenberq tərəfindən yaradıldığını qəbul etsə də, tarixdə bu kəşfin uyğurlara aid edildiyini təsdiqləyən faktlar var.

Ölkəmizdə uyğur dilinə və mədəniyyətinə daim böyük maraq olub. Tanınmış araşdırıcılar Əli Şamil, Güllü Yoloğlu, Vüqar Mustafa, Qətibə Vaqifqızı və başqaları uyğur mədəniyyəti, folkloru, tarixi və ədəbiyyatı ilə bağlı qəzet və jurnallarda çox sayda maraqlı məqalələr dərc etdirmişlər.

*N.QƏDİMOĞLU*
*XQ*

# Turan sevgisi

**Ürəyimdə bir dilək var,**
**O da doğru kəsilsin.**
**O gün olsun bu göy bayraq,**
**Turan üstdən asılsın!**
**C.Cabbarlı**



**Turan nədir?**
**Tur babamın yeri-göyü, yaylası.**
**"Ergənəkon" işığında**
**anaların laylası!**



**Turan nədir?**
**Turanlının yurdu, evi-eşiyi,**
**Layla ilə dolub-daşan**
**körpələrin beşiyi.**

**Turan nədir?**
**Bir millətin bütünlüyü, birliyi,**
**Əvvəldə də, axırda da**
**diriliyi, dirliyi!**

**Turan nədir?**
**Arzumuzun uzaq-uzaq hədəfi,**
**Qəlbimizin, ruhumuzun**
**uca şanı-şərəfi.**

**Turan nədir?**
**Əbədiyyət, uzun yolun yolçusu,**
**Sabahları açmaq üçün**
**Xoş xəbərin elçisi.**

**Turan nədir?**
**Göy üzünün**
**Göyə sığmaz işığı.**
**Sönməz Ayı, ulduzu,**
**dünyanın yaraşığı!**

**Turan nədir?**
**Sevgimizin solmaz olan rəngidi.**
**Bizim olan bayraqların**
**çiçəkdən çələngidi!**

**Zəlimxan YAQUB**

Günün vandalizmi

# Fransanın UNESCO dəyərlərinə hörmətsizliyi humanitar cinayətdir

**Fransanın heykəlini təhqirə məruz qoyduğu Natəvanın “Gül dəftəri” adlı şeirlərdən ibarət rəsmli əlyazması UNESCO-nun Dünya Yaddaşı Reyestrinə daxil edilib. Azərbaycanın görkəmli şairi və ictimai xadimi Xurşidbanu Natəvana Fransada göstərilən təhqiramiz münasibət bu ölkədə insana və sənətə münasibətdə bütün dəyərlərin itdiyini göstərir.**



İnsanın ən dərin düşüncələrini yüksək bədii səviyyədə tərənnüm etməklə Xurşidbanu Natəvanın insanlığa göstərdiyi xidmətin müqabilində Fransanın Azərbaycanın qadın şairinin heykəlinə bəslədiyi qeyri-insani münasibət bu ölkənin özünü hansı səviyyədə aşağı endirdiyini əyani şəkildə nümayiş etdirir. Hələ XIX əsrdə “Məclisi-üns” kimi ədəbiyyat məclisinə bacarıqla rəhbərlik etmiş Xurşidbanu Natəvanın heykəlinin Fransada təhqir olunması Viktor Hüqonun vətənində sənət dəyərlərinin də artıq itirildiyini diqqətə çatdırır. Fransız yazıçısı Aleksandr Dümanı Azərbaycanın qədim və gözəl guşələrindən biri olan Qarabağda qonaq edib



duz-çörəklə qarşılayan, lütfkarlıq edib onunla şahmat taxtası arxasında əyləşən Xan qızı Xurşidbanu Natəvanla müqayisədə Fransa rəsmiləri dünyanın nəzərində tutduqları məqamdan çox cılız görünürlər.

Fransa prezidenti Makronun uğursuz siyasəti fransız xalqını bütün in-




sanlıq və sənət dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdur. Sarı jiletli xalq nümayəndələrinin Paris şəhərinin küçələrindəki həyəcanlı çıxışları, etiraz əlaməti olaraq atdıqları dağıdıcı addımlar fransızların heç də hamısının Fransa iqtidarı ilə eyni fikirdə olmadıqlarını görməyə tam əsas verir. Deməli, dəyərlərini itirən xalq deyil, ikili standartlarla dünyada artıq etibarı gözdən düşmüş Fransa rəsmiləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə haqlı olaraq bildirdiyi kimi, “öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun selofana bükülməsi, ...gücsüzlük və isterikanın özünü heykəldə göstərməsi” Fransa iqtidarının məhkum olduğu “mənəvi deqradasiyanın dibi” deməkdir. Fransanın mənəvi deqradasiyası isə onun siyasi iflasının qarşısıalınmaz bir həddə çatmasının göstəricisidir.

İşğalçı Ermənistana verdiyi süni dəstəyin isə erməni xalqı faktorundan istifadə etməklə, bədbəxt erməniləri aldatmaq yolu ilə Fransanın Afrikada itirilmiş mövqelərini Qafqazda bərpa etmək xülyasından başqa bir şey olmadığını dünyada hər kəs, o cümlədən ermənilər də yaxşı başa düşürlər. Fransanın növbəti müstəmləkəçilik planının ifadəsi olan bu səylər isə heç bir Qafqaz ölkəsində, o cümlədən hətta sadə erməni xalqının iradəsi yetərli olan məqamda heç Ermənistanın özündə də baş tuta bilməz.

Fransanın hansı mövqe sərgiləməsindən asılı olmayaraq, Xurşidbanu Natəvanın ölməz sənəti özünün yüksək ideya-bədii dəyərlərini qoruyub saxlayır. Xan qızı Natəvanın XIX əsrdə yüksək zövqlə hazırladığı “Gül dəftəri” adlı rəsmli şeir kitabının nadir əlyazmasının Dünya Yaddaşı Reyestrinə daxil edilərək beynəlxalq miqyasda qəbul edilməsi və qorunması haqqında UNESCO-nun 2023-cü ildə səsvermə yolu ilə qəbul etdiyi qərar Azərbaycan şairinin zəngin ədəbi irsinə dünya miqyasında verilmiş böyük qiymətin isbatıdır. Eyni zamanda, Ermənistanın vəhşicəsinə xarabazarlığa çevirdiyi Ağdam şəhərində Xurşidbanu Natəvanın dağıdılmış məzarının, Şuşadakı uçurulmuş sarayının, bulaq abidəsinin və güllələnmiş heykəlinin torpaqlarını işğaldan azad etmiş müstəqil Azərbaycan dövləti tərəfindən yüksək səviyyədə yenidən bərpa edilməsi, həyata qaytarılması ədalətin təntənəsinin bariz nümunəsidir.

Bu gün Fransa dairələri Xurşidbanu Natəvanın heykəlinə bəslədikləri qeyri-insani təhqiramiz münasibətlə Birləşmiş Millətlər Təşkilatının tərkib hissəsi olan UNESCO-nun da prinsiplərini pozur və orada da etibarını itirir. Hesab edirəm ki, Birləşmiş Millətlər Təşkilatı UNESCO-nun Baş iqamətgahının dünya miqyasında qəbul edilən prinsipləri kobudcasına pozan Fransada yerləşməsi məsələsinə yenidən baxmalıdır.

Azərbaycan şairi və ictimai xadimi Xurşidbanu Natəvanın heykəlinə təhqiramiz münasibəti icra edənlər layiq olduqları cəzaya məhkum edilməlidirlər.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***akademik***

# “Heydər Əliyev İli. Nəşrlər və tədbirlər”

**“Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) tərəfindən Ulu öndərin zəngin siyasi irsinin, çoxcəhətli fəaliyyətinin öyrənilməsi və təbliği məqsədilə çap olunmuş əsərlər və ilboyu AMEA-da dahi liderə həsr edilən tədbirlərə dair “Heydər Əliyev İli. Nəşrlər və tədbirlər” adlı kataloq nəşr olunub.**




“Elm” nəşriyyatında işıq üzü görmüş toplunun layihə rəhbəri AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir. Kataloqu tərtib edən Akademiyanın Humanitar Elmlər Bölməsinin elmi katibi filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədxanlı, nəşrin məsul redaktoru isə İctimai Elmlər Bölməsinin elmi katibi filologiya üzrə fəlsəfə doktoru Zümrüd Mənsimovadır.

Kataloqun ilk səhifəsində Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Sərəncamı öz əksini tapıb.

“Heydər Əliyev İli” çərçivəsində AMEA Rəyasət Heyəti, Humanitar və İctimai Elmlər Bölmələrinin elmi müəssisələri, Mərkəzi Elmi Kitabxana, Naxçıvan və Gəncə bölmələri, həmçinin digər qurumlarda çap olunmuş nəşrlərin, jurnalların xüsusi buraxılışlarının, elmi konfrans, sessiya, seminar və sərgilərin siyahısı və fotoqalereyası kataloqa daxil edilib. Həmçinin AMEA əməkdaşlarının “Heydər Əliyev İli”nə həsr etdikləri rəsm əsərləri də oxuculara təqdim olunub.

**XQ**

Sözün vətəni – Vətənin sözü

# Kərkük elinin şeir çələngi

**İraq–Kərkük elləri ruhumuzun, könlümüzün işıqlı guşələrində qərar tutmuş yurdlardandır. Bu coğrafiyada 3 milyondan çox türkman yaşayır. Mosul, Kərkük, Ərbil, Samərra və Diyalada onların bizə doğma olan ləhcədə ixtilatlarını eşidə bilərik.**

***“Tarixi araşdırdığımda gördüm ki, Quzey Azərbaycan, Güney Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır”.***

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

Hələ 8 əsr əvvəl İraqın Bağdad və ətraf ərazilərinin Azərbaycanla bir bütöv olduğu faktını xatırlasaq, türkmanları bizimlə necə dərin köklərin – tarixi əlaqələrin bağladığını görərik. Qanı bir-canı bir qardaşlarımızın ədəbi örnəkləri də ruhumuza olduqca yaxındır. “Ninnə yarım”, “Evlərinin önü yonca”, “Hər gün axşam olu dallam”, “Qızıl üzük, yaşıl qaşı” kimi mahnıları hər zaman sevə-sevə dinləmişik. Qəzənfər Paşayevin “Altı il Dəclə–Fərat sahillərində” kitabı da gözlərimiz önündə bir Kərkük dünyasının mənzərələrini açıb.

Ötən payız Bakı Beynəlxalq Multikulturalizm və Beynəlxalq Münasibətlərin Təhlili mərkəzlərinin birgə keçirdikləri “İraq türkmanları və Türk dünyası: Tarixi yaddaşın bərpası” mövzusunda beynəlxalq konfransda əsas məqsəd də tarixi yaddaşı bərpa etmək, eyni irsin, dilin, ədəbiyyatın tədqiq olunması, gələcək əməkdaşlıqların qurulması istiqamətində müzakirələr aparmaq, bununla da Türk dünyası birliyinə yeni töhfələr vermək idi.

O da konfransa qatılanlar arasında idi – etnik türkman olan böyük Azərbaycan sevdalısı Şəmsəddin Kuzəçi. Yenicə AMEA-nın fəxri doktoru seçilmişdi. Kərkük Mədəniyyət Mərkəzinin, Dünya İletişimçiləri Birliyinin qurucusu və rəhbəri, İraq-Türkman Jurnalistləri Cəmiyyətinin sədri, “Kərkük” qəzetinin sahibi və baş redaktoru Şəmsəddin Kuzəçi ilə həmin ərəfədə redaksiyamızda görüşümüz olmuşdu. Həmkarım Tahir Aydınoğlu və mən ondan Kərkükdəki soydaşlarımız, oradakı ədəbi proses barədə ətraflı məlumat almışdıq. “İraq azərbaycanlıları olaraq, özümüzü sizinlə bir bütövün içində görür, ədəbiyyatımızı, mədəniyyətimizi yaşatmaq, yaymaq amalına xidmət edirik”, – deyən qonağımız bizə Ankarada yenicə çap etdirdiyi “Kərkük şairləri” kitabını da bağışlamışdı.

Şəmsəddin bəyin qırılmaz mənəvi bağlarımız barədə dediklərindən: “Hürufi şeyxi İmadəddin Nəsimi Bağdadın 12 kilometrliyində yerləşən Nəsim kəndində də, Suriyanın Hələb şəhərində də yaşayıb. Ərəb-türkman ədəbiyyatının ilk yazılı nümunələri məhz onunla başlayır. Sonra Məhəmməd Füzuli gəlir. Kərkükdə babası ilə birlikdə yaşayıb. İndi də Kərkük qalasında evi qalır. Babası dövlət məmuru kimi Kərbəlaya göndəriləndə Füzuli də köçərək uzun müddət orada qalıb”. Göründüyü kimi, Nəsimi və Füzuli irsinin xəlqi qaynaqları İraqdakı soydaşlarımızın əsrlərcə yaşı olan böyük söz xəzinəsindən boy göstərib.

AYB-də keçirilən görüşdə ünlü yazarın təkrar nəşr kimi hazırladığı “Rəsul Rza: Uzaq ellərin yaxın töhfəsi” kitabı təqdim edilib. Şəmsəddin Kuzəçinin Beynəlxalq Rəsul Rza mükafatına təqdim olunduğu bildirilib. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Qəzənfər Paşayev kitab haqqında məlumat verərək bildirib ki, Xalq şairi Rəsul Rzanın həmin məqaləsi 60-cı illərdə “Azərbaycan” jurnalında çıxandan sonra geniş əks-səda doğurub. Hətta İraq türkmanlarının öndə gələn ziyalısı, şair-folklorşünas alim Əbdüllətif Bəndəroğlu baş yazarı olduğu “Qardaşlıq” dərgisinin ardıcıl olaraq 6 sayında həmin məqaləni çap etdirib. İndi isə Şəmsəddin Kuzəçi məqaləni kitab halında çıxararaq, İraqda yaşayan soydaşlarımıza, həmçinin bizə və türkiyəli qardaşlarımıza ərməğan edib.

Xarici səfərləri zamanı İraqda Məhəmməd Füzulinin, Suriyada İmadəddin Nəsiminin məzarlarını ilk ziyarət etmiş, onlar haqqında duyğu və düşüncələrini cəsarətlə demiş, İraq türkmanları və xoyratlardan ilk olaraq söz açmış Rəsul Rza sözügedən dərin məzmunlu məqaləni böyük məhəbbətlə qələmə alıb, necə deyərlər, uzaq ellərimizi bizə daha da yaxınlaşdırıb. Dil, din, ruh birliyimizlə bağlı çox mətləblərdən sübut-dəlillə söz açıb.

Böyük türk şairi Nazim Hikmət yazırdı: “Ötən il Rəsul Rza İraqa getmişdi. Qayıdanda əlində bir kitab gördüm. Elə bil şair əlində öz ürəyini aparırdı. Azərbaycancaya çox, lap çox yaxın olan bu şeirlər İraqda yaşayan türkmanların bayatıları idi”.

Daha sonralar Rəsul Rza qələmə aldığı “Yaralı Kərkükün bugünkü xoyrat və maniləri” silsilə şeirlərində bu kökə bağlılığı nəfəsi, ruhu, bayatılı nəğmələri ilə təcəssüm etdirib. Kərkük dolaylarında çox məşhur olan bu şeirlərdən birinə yerli müğənni Əbdülvahid Kuzəçi oğlu musiqi bəstələyib və kitabına daxil edib.

*Bağdaddan karvan gəlir,*
*Dərdli, pərişan gəlir.*
*Kimlər qurban kəsilib*
*Sularım al-qan gəlir?..*

İraq türkmanlarının ədəbiyyatı zəngindir, önəmli yazarları olub və var. Kərkük folkloru və digər nümunələrinin, mənəvi sərvətin toplanması, nəşri və tədqiqi böyük alim, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Əta Tərzibaşının adı ilə də bağlıdır. Yuxarıda adlarını çəkdiyimiz məşhur mahnıları bizə tanıdan kərküklü alim-pedaqoq, tərcüməçi, jurnalist Sinan Səid 1959–1970-ci illərdə Azərbaycanda yaşayıb, aspiranturada oxuyub, bir azərbaycanlı xanımla evlənib, 2 övladı olub. Azərbaycan Radiosunun ərəb dilində verilişlərinin aparıcısı olub. Qeyd edək ki, Xalq yazıçısı Anarın “Min beş yüz ilin Oğuz şeiri” ikicildliyində İraq Türkman şairləri haqqında geniş məlumatlar var.

Yazarlardan Salah Növrəsin, Fələkoğlu, Əbdüləziz Səmin, Əli Yağmuroğlu, Fövzi Əkrəm, Farük Köprülü, Məhəmməd Ömər Qazançı, Hanı Sahib, Kamal Bayatlı və daha neçə-neçə ünlü qələm sahibi Kərkük ellərinin sevilən imzalarıdır. Bu il yanvarın 6-da Kərkük Mədəniyyət Mərkəzinin 10 illiyi münasibətilə həmin şəhərdə “Türkmen Şairler Evi” açılıb. Oradakı “Şairlər buluşması”na Ərbil, Kərkük, Tuzhurmatu, Bağdad, Ankara, İstanbul və Almanyadan 40-a yaxın yazar qatılıb.

İraq türkman şairlərinin yaradıcılığından bəzi nümunələri təqdim edirik.



## DİLİM

*Açıl, dilim, açıl dilim,*
*Seçil, dilim, seçil, dilim.*
*Yurda düşmən olanlara*
*Atəş olub saçıl, dilim.*

*Çalış, dilim, çalış, dilim,*
*İstəklərə qovuş, dilim.*
*Şirin Əta sözlərinin*
*Oxunağın alış, dilim.*

*Qudsal dilim, qudsal dilim,*
*Bülbül kimi ötsən, dilim.*
*Havalandır uca səsin,*
*Göylərə çıx, yüksəl, dilim.*

*Mövzuları özəl dilim,*
*Gözəllərdən gözəl dilim.*
*Yazı əyri-üyrü olur,*
*Sən düz oxu, düzəl, dilim.*

***Telafərin Fələkoğlu***

## SÖZLƏR

*Qabarlı ovuclarımda*
*Bir salxım sözüm var.*
*Qıfıllanmış kökləri*
*Könlümün tarlasına.*
*Qoxladığım bağçalardan,*
*Yoxladığım boxçalardan*
*Yığmışam doyunca*
*Bu sözləri ömür boyunca...*
*Gecələrin əsrarəngiz meşələrini,*
*Dənizlərin çalxantılı limanlarını,*



*Həm də dinsizlərin küllənmiş imanlarını*
*Aşmalıyam,*
*Qartal gözlərilə*
*Səpməliyəm*
*Ovuclarımı yandıran,*
*Yorğun beynimi döyən*
*Bu köhnəlmiş sözləri*
*Buz tutmuş çöhrələrə...*

***Əbdüləziz Səmin Bayatlı***



## GÖZLƏRİN

*Qorxum var gözlərindən*
*Bir gün gözümdən itər,*
*Günbəgün əriyirəm*
*Bir yanan şamdan betər.*

*İki ruh birləşəndə*
*Doyamaz bir-birindən,*
*İstəməm bir gün gəlib*
*Bizə söyləsin: yetər.*

***Gülzar Bayatlı***



## BİZDƏN DEYİL

*Heç batmayan Günəşi,*
*Gözlənilən barışı,*
*Savaşla qurtuluşu*
*Sevməyən bizdən deyil.*

*Şanlı millət, vətəni,*
*İgid, aslan Ətanı,*
*Yerdə şəhid yatanı*
*Sevməyən bizdən deyil.*

*Din, dil, millət, torpağı,*
*Qandan təmiz bayrağı,*
*Gur-gur yanan çırağı*
*Sevməyən bizdən deyil.*

*Ağsu, Fəsa, Fəratı,*
*Günəşə qaçan atı,*
*Tanrısına biəti*
*Sevməyən bizdən deyil.*

*Kərkük, Bəsrə, Bağdadın*
*Duyan yoxdur fəryadın.*
*Peyğəmbərin övladın*
*Sevməyən bizdən deyil.*

***Fövzi Əkrəm***



## XORYATLAR

*Oxu yeri,*
*Aç kitab, oxu yeri.*
*Sinəmi sərənd etdi*
*Fələyin oxu yeri.*

*Ay demə,*
*Ulduz demə, Ay demə.*
*Düşmən halın soranda*
*Gül üzünə hay demə.*

*Oxuyandı,*
*Yar kitab oxuyandı.*
*Ox atdı məni vursun,*
*Sinəmdə oxu yandı.*

*Bir dəm gül,*
*Bir dəm ağla, bir dəm gül.*
*Səhər vaxtı qan ağlar*
*Bir dəm bülbül, bir dəm gül.*

*Kərkük altı Daramən,*
*Əmək verəm yara mən.*
*Namərdə boyun əyməm,*
*Çəkilsəm də dara mən.*

***Məhəmməd İzzət Xəttat***

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

İdman

# Bu dünyadan bir “kayzer” köçdü...

**Maradona və Peledən sonra dünya futbolunun daha bir əfsanəsi yenicə qarşıladığımız bu ildə bizi tərk etdi. Frans Bekkenbauer 79 yaşında həyatla əbədi vidalaşdı. “O, alman futbolu üçün böyük uğur idi və belə də qalacaq. Ondan yaxşısı yoxdur, olmayıb, heç olmayacaq da!”. Əfsanəvi alman futbolçusunun 65 yaşı olanda bu sözləri Bekkenbauerin həmkarı Günter Netzer yazmışdı. 2010-cu ildə nə Netzerin, nə də başqa bir adamın ağlına da gəlməzdi ki, həyatının son illərində alman futbolunun dahisinin adı 2006-cı il Dünya Çempionatı ilə bağlı qalmaqlda hallanacaq.**






## Alman futbb unun “kayzeri”

1945-ci ildə Münhendə anadan olan Frans Bekkenbauer “kayzer” ləqəbini təsadüfən almamışdı. O, futbol meydançasında şəriksiz lider idi. Lakin futbolçuya bu imperator ləqəbinin necə verildiyi haqqında bir çox versiyalar var. Bekkenbauer özü söyləyirdi ki, ona bu ləqəbi 1971-ci ildə Vyanada keçirilən yoldaşlıq görüşündən sonra Avstriya imperatoru I Frans İosifin büstü qarşısında şəkil çəkdirəndən sonra veriblər. Bir çoxları isə iddia edirlər ki, “kayzer” ləqəbi 1969-cu ildə “Şalke” və “Bavariya” klublarının ölkə kuboku uğrunda final oyunundan sonra “dünyaya gəlib”. Matç zamanı Bekkenbauer “Şalke”nin heyətində oynayan “Vestfaliya kralı”-na qarşı qaydanı pozur və azarkeşlər onu fitə basırlar. Buna cavab olaraq Münhenin futbolçusu birbaşa qonaq tribunanın qarşısında 40 saniyə topla “janqlyorluq” edir. Bu təxribatdan sonra reportyorlar Bekkenbaueri “kayzer” adlandırmağa başlayırlar.

Frans Bekkenbauer “libero” (sərbəst) müdafiəçi mövqeyində gözəl oyunu ilə seçilirdi. Onun özünəməxsus görkəmi vardı– başını dik tutub oynayırdı, bundan da görünürdü ki, meydanda “kayzer” oynayır. Onun ötürmələri zərgər dəqiqliyi ilə seçilirdi. O, komandanın hücumlarına, ümumiyyətlə, oyuna dirijorluq edirdi. Matçlar zamanı Bekkenbauer, demək olar ki, soyuq, təkəbbürlü və əzəmətli, bir sözlə, imperator kimi təsir bağışlayırdı. Mütəxəssislərin onu artıq istedadlı oyunçu kimi görmələrinə baxmayaraq, ictimaiyyət “kayzeri” öz sevimlisinə çevirməyə tələsmirdi. Bekkenbauer özü sonralar bunu belə xatırlayırdı: “Məni iddialı və təkəbbürlü oyunçu hesab edirdilər”.

Bekkenbauer XX əsrin ən yaxşı müdafiəçilərindən biri hesab olunur. “Kayzer” karyerasının böyük bir hissəsini, hələ 13 yaşında heyətində top qovmağa başladığı Münhenin “Bavariya” klubunda keçirib. 1970-ci ildən 1977-ci ilə qədər Bekkenbauerin kapitanı olduğu “Bavariya” 3 dəfə ardıcıl olaraq Avropa Çempionlar Kubokunu qazanıb və bu nailiyyətinə görə kubok həmişəlik komandaya hədiyyə edilib. Bekkenbauer üçüncu qalibiyyətdən sonra özünün ikinci “Qızıl top”unu alıb.

“Kayzer” “Bundesliqa”da 400 matçda meydana çıxıb. İki dəfə futbol üzrə dünya çempionu tituluna sahib olub: birinci dəfə 1974-cü ildə oyunçu kimi, ikinci dəfə 1990-cı ildə isə baş məşqçi kimi.

## “X X yüzilliyin futbolçusu”

Bekkenbauer Almaniya yığmasının heyətində 100-dən çox matçda oynayıb. 1971-ci ildən komandanın kapitanı kimi meydana çıxıb. 1972-ci ildə Avropa çempionatının finalında SSRİ komandası ilə qarşılaşmada qalib gələn Almaniya millisi qızıl medallara sahib olub. 1974-cü ildə isə ətrafında “Bavariya” klubunun Zepp Mayer, Paul Braytner, Uli Höness və Herd Müller kimi “ulduzlar”ını birləşdirən “kayzer” başda olmaqla, Almaniya yığması artıq öz doğma şəhərində Hollandiya millisinə 2-1 hesabı ilə qalib gələrək yeni dünya kubokuna sahib olub.

1974-cü ilin payızında Bekkenbauer Amerikaya köçür və orada “dünya futbolunun kralı” Pele ilə oynamağa başlayır. Okeanın o tayında da “kayzer” 3 dəfə çempion olur. 1982-ci ildə “Bundesliqa”ya qayıdan futbolçu “Hamburq” klubu ilə Almaniya çempionu olur. Əfsanəvi futbolçu kimi son mövsümünü Nyu-Yorkun “Kosmos” klubunda “yaşıl meydan”da sevimli “libero” mövqeyində oynayır. 1983-cü ilin sentyabrında “kayzer” son matçına çıxır.

Futbol əfsanəsinin mükafatlarını saymaqla qurtaran deyil. O, 4 dəfə AFR-də, 2 dəfə Avropada “İlin futbolçusu” seçilib. Almaniyada isə “kayzer” “XX yüzilliyin oyunçusu” fəxri adına layiq görülüb.

Almaniyanın tanınmış idman jurnalisti Hans Blikensdyorfer sonralar yazırdı ki, Bekkenbauer hələ oyunçu mövqeyində top qovanda artıq məşqçi idi. Ona görə də 1984-cü ildə “kayzer” futbolçu formasını çıxarıb məşqçi geyimində meydançanın kənarında görünəndə buna heç kim təəccüblənmədi. O, dərhal AFR “komandasının başçısı” oldu. Almaniya Futbol İttifaqının (DFB) məşqçilik üçün nə lisenziyası, nə də müvafiq təhsili olan Bekkenbauerə məxsusi olaraq belə vəzifə təklif etməsi aydın idi. Sonralar isə o, fəaliyyətinin nəticəsinə əsasən məşqçilik lisenziyası aldı.

1986-cı ildə Meksikada keçirilən Dünya çempionatında Almaniya millisi 2-ci oldu. Məşqçi ilə futbolçular arasında münasibətlər arzuedilən səviyyədən çox uzaq idi. Bekkenbauer bir çox oyunçuları çəkinmədən “qanmaz” adlandırdı. “Kayzer”i məsxərəyə qoyub “təlxək” adlandırdığına görə qapıçı Uli Ştaynı dərhal evə yola saldılar.

Dörd il keçdi. Bütün anlaşılmazlıqlar və fikir ayrılıqları unuduldu. 1990-cı ildə Romada keçirilən Dünya çempionatında Almaniya millisinin çıxışı qələbə ilə nəticələndi. Bekkenbauer sonrakı nəsillər üçün əsl ilham mənbəyinə çevrildi. Belə bir inam yaranmışdı ki, “kayzer” nəyə toxunursa, o, “qızıl”a çevrilir. Keçid mərhələsində o, iki dəfə “Bavariya” klubunun məşqçisi oldu. 1994-cü ildə Erix Ribbekin istefasından sonra Bekkenbauer komandası ilə birlikdə çempion oldu.

1996-cı ildə Otto Rehhagelin uğursuzluğundan sonra məşqçilik məsuliyyətini öz üzərinə götürən Bekkenbauer bavariyalıları UEFA kubokunun qalibi etdi. “Kayzer” 15 il “Bavariya”nın rəhbəri oldu: 1994-cü ildən 2009-cu ilə qədər, klubun prezidenti idi.

## “Y ay nağılı” qalmaqalı

Frans Bekkenbauer, məşqçi kimi uca zirvələr fəth edəndən sonra DFB-nin yüksək ranqlı futbol məmuru kimi də şöhrət qazanmağa başladı. 1998-ci ildən “kayzer” rəyasət heyətini idarə etməyə başladı. 2006-cı ildə o, Dünya çempionatını keçirmək üçün ölkəsi adından sifariş verən komitənin rəhbəri seçildi və Almaniyanın namizədliyinin uğur qazanmasına nail oldu. Beləcə, Frans Bekkenbauer “yay nağılı”nın (Almaniyada 2006-cı il Dünya Çempionatını məhz belə adlandırırlar–İ.R.) Almaniyada baş tutmasının səbəbkarı oldu. Almaniya mediası, xüsusən də həftəlik “Der Spiegel” nəşri onu diplomatiyanı futbol oynamaq qədər asanlıqla bacaran “xarici işlər naziri” adlandırdı.

Təəssüf ki, bir müddət sonra elə “Der Spiegel” jurnalı uzun müddət alman futbolunda görünməmiş bir qalmaqal haqqında açıqlamalar dərc edərək, “kayzer”in bu uğurunu gözdən saldı. Dövrün ən tanınmış həftəlik jurnallarından biri 2015-ci ildə oxuculara təqdim etdiyi sensasiyalı materialda DFB-nin futbol üzrə 2006-cı il Dünya Çempionatının Almaniyada keçirilməsi hüququnu FİFA-nın İcraiyyə Komitəsinin üzvlərinə rüşvət verməklə aldığını bəyan etdi. Jurnalistlər iddia edirdilər ki, onlar konkret bu faktın izinə düşüblər. Şübhələr göstərirdi ki, “yay nağılı” Almaniyaya təmiz yolla gəlməyib. Bu da “kayzer”in karyerasına kölgə salırdı. “Der Spiegel”in jurnalistlərinə bəlli olmuşdu ki, “Adidas” firmasının o zamankı icraçı direktoru Rober Lui Dreyfus 2002-ci ildə gizli şəkildə DÇ-2006-nın təşkilat komitəsinin rəhbəri Frans Bekkenbauerə 6,7 milyon avro kredit ayırıb.

İsveçrədə dələduzluqda ittiham edilən keçmiş futbol məmurlarının cinayət işinin istintaqı başladı. Təhqiqatı aparan İsveçrə müstəntiqləri bu qərara gəldilər ki, futbol məmurları DÇ-2006-nın təşkilat komitəsinin üzvlərinə ödənilən 6,7 milyon avronun əsl məqsədini gizlədiblər. Bekkenbauerə qarşı da istintaq aparılırdı, lakin onun səhhətində problem olması səbəbindən 2019-cu ildə “kayzer”in işinə ümumi istintaqdan ayrı baxıldı.

Bekkenbauer uzun müddət susdu, hər dəfə səslərin pulla alınmasını dandı. DFB-in ödəniş sənədi üzə çıxanda isə, Bekkenbauer məsuliyyəti öz üzərinə götürərək bəyan etdi ki, “ovaxtkı təşkilat komitəsinin prezidenti kimi bu səhvə görə məsuliyyət daşıyır”. İstintaq materiallarında keçən sənədlərdə onun imzası var idi. “Mən həmişə imzamı kor-koranə atıram, hətta ağ kağızlara belə”, – deyə “kayzer” etiraf etdi.

“Yay nağılı” ətrafındakı qalmaqala görə Bekkenbauer ictimai səhnədən qeybə çəkildi. O, həyatının son illərini Avstriyanın Zalsburq şəhərində, üçüncü həyat yoldaşının yanında keçirirdi. Bekkenbauerin 5 uşağı vardı. Onun oğlu Ştefan 2015-ci ildə ağır xəstəlikdən vəfat etmişdi. “Bu, həyatım boyu ən böyük itkim idi”, – deyə Bekkenbauer qeyd edirdi. “Mən bilmirəm, nə vaxtsa öz övladının ölümünə tab gətirmək mümkündürmü? Yəqin ki, yox...”

Son illər “kayzer”in səhhəti xeyli pisləşmişdi. İki dəfə ürəyindən əməliyyat olunmuşdu. Futbolçu, məşqçi məmur və Bekkenbauerin yoldaşı Uli Höness qeyd edir ki, təəssüf ki, “kayzer”ə çox ağır həyat nəsib olub. Onun nailiyyətləri əlçatmazdır, lakin o cibinə heç nə qoymayıb. Nə vaxtsa aydınlıq gətirilməlidir. Onu sakit buraxmaq lazımdır!”

Bir neçə il əvvəl reportyorlar Frans Bekkenbauerdən soruşublar ki, o, həyatda nəyə görəsə peşmanlıq çəkirmi?

“Peşmanlıq? Nə üçün?! Yox!” – deyə qürurlu “kayzer” qətiyyətlə cavab verib.

Həqiqətən də, futbolun əfsanəsi və bu ecazkar oyuna böyük sosial status bəxş edən insan nəyə görə peşmanlıq çəkməlidir ki?!

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

Beynəlxalq həyat

# Türk ordusu 57 terrorçunu zərərsizləşdirib

**İraqın şimalında və Suriyada son 24 saatda keçirilən əməliyyatlarda zərərsizləşdirilən terrorçuların sayı 57-yə yüksəlib.**



Bu barədə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

"Şəhidlərimizin qanı yerdə qalmayacaq. Ən çətin şəraitdə xain hücumun əvəzini PKK terrorçularına ödəməyə davam edirik. Əməliyyatlarımız qətiyyətlə davam edir", – açıqlamada deyilir.

Xatırladaq ki, yanvarın 12-də İraqın şimalında “Pence-Kilit” əməliyyatı bölgəsində Türkiyə ordusunun mövqelərinə terrorçuların hücumu zamanı 9 hərbçi şəhid olub.

***XQ***

# Yəmənə hava zərbələri dünyanı titrədir

**Dünən ABŞ və Böyük Britaniya Yəmənin paytaxtına yenidən hava zərbələri endirib. Hücum Avstraliya, Bəhreyn, Kanada və Hollandiyanın dəstəyi ilə başlayıb. Hərbi əməliyyat barədə Ağ evin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, hərbi əməliyyatda iştirak edən ölkələr silah–sursat anbarları və buraxılış qurğuları da daxil olmaqla, 16 obyektdə 60-dan çox hədəfə zərbələr endirib.**



Bu hücumdan sonra dünya bazarlarında yanacağın qiymət artımı ilə yanaşı, neft və dəniz nəqliyyatı şirkətlərinin səhmləri bahalaşıb.

Ekspertlər xəbərdarlıq ediblər ki, bu vəziyyət tədarükdə böhran yaradacaq. Artıq bunun ilk əlamətləri görünməyə başlayıb. Böyük dəniz konteyner daşıyıcı şirkətlər “AP Moller-Maersk” və “Hapag-Lloyd” Qırmızı dənizdə yük daşımaqdan imtina ediblər. Onların gəmiləri Qırmızı dəniz və Ədən körfəzini birləşdirən Bab əl-Məndəb boğazından keçməyəcək. Gəmi sahibləri və brokerlərin sözlərinə görə, son həftələr Bab əl-Məndeb boğazında ən azı səkkiz gəmiyə hücum edilib. Bölgədəki dəyişikliklər isə yükgöndərənlərin xərclərini artırır və bəzi ölkələri təhlükəsizlik tədbirlərini yenidən düşünməyə vadar edir. Bu, öz növbəsində konteyner daşımalarındakı malları bahalaşdırır. Həm də yanacaq bahalaşır. Artıq “Brent” markalı neft 2 faizdən çox bahalaşıb. Onun mart fyuçersləri bir barel üçün 79,33 dollara təklif edilib. WTI markalı neftin fevral fyuçersləri 2,32 faiz artaraq bir barel 73,92 dollara satılıb. Analitiklər etiraf edirlər ki, regionda gərginliyin artması qiymətlərin bir barel üçün 10 dollar bahalaşmasına gətirib çıxaracaq.

“Bloomberg” agentliyi isə bildirib ki, daşımalarda fasilələrin yaranması və münaqişənin daha geniş regiona yayılması qorxusu var. Nəzər alsaq ki, husilər gəmilərə hücumları davam etdirəcək, deməli, neft bazarları üçün geosiyasi risklər artacaq. Təhlilçi Covanni Staunovonun fikrincə, “qara qızıl”ın qiymətinin sıçrayışı da bununla bağlıdır. Əgər Yaxın Şərqdən neft tədarükü İsrail və Qəzza zolağı arasında münaqişə səbəbindən davam edərsə, 2024-cü ildə “Brent” neftinin orta qiyməti bir barel üçün 120 dollara çata bilər.

Hazırda əsas məsələlərdən biri İranın husilərə dəstəyidirsə, digəri husilərin Qırmızı dənizdə ABŞ və Böyük Britaniyaya qarşı cavab tədbirləridir. Onların kifayət qədər hərbi potensialı var. Süveyş kanalında daşımaların tam bərpası üçün isə ilkin şərtlər yoxdur.

***P.ƏFƏNDİYEV***
***XQ***

Ağırlıqqaldırma

# Baş üstündə qazanılan qələbələr

*Yeni baza idmanın bu növündə uğurlara meydan açıb*

**“ASK Arena”da ağırlıqqaldırma üzrə yığma komandaların yeni istifadəyə verilmiş təlim-məşq bazasında səhərdən başlayan məşq prosesi sona çatmaq üzrədir. 12 məşq körpücüyü, əsas və köməkçi avadanlıqlar, fiziki hazırlıq üçün tələb olunan bütün lazımi alətlərin yerləşdirildiyi və müasir standartlara uyğun qurulan zalda komandamızla yanaşı, Özbəkistan millisi də hazırlıq keçir.**



İdmançıların başları üzərinə qaldırdıqları ştanqaların yerə çırpılan zaman çıxardıqları gurultulu səs əks- səda verir. Nəzərə alaq ki, bu idman növündə atletlərin daha böyük fiziki gücə sahib olması tələb olunduğuna görə, gücü artıran məşqlərə böyük önəm verilir. Özü də, ştanqa və digər alətlərlə, eləcə də alətsiz müxtəlif hərəkətlər sürətlə yerinə yetirilməlidir. Necə deyərlər, yavaş məşq etsən, meydanda da ağır hərəkətlər edəcəksən. Sürətlə məşq etsən, daha güclü olacaqsan, prinsipi burada da öz sözünü deyir.

**Məşqdən sonra bizimlə söhbətində Özbəkistan millisinin üzvü, Olimpiya çempionu Ruslan Nurudinov bildirir ki, builki hazırlıqlar mühüm əhəmiyyət daşıyır:**

– İlk dəfədir Azərbaycanda hazırlıq keçirik. Məşqlərimiz yüksək səviyyədə təşkil olunub. İnanıram ki, gələcəkdə yenidən bu gözəl zala üz tutacağıq. Gələn ay Asiya çempionatı başlayacaq. Yarışa yaxşı hazırlaşmaq və yüksək əhvali-ruhiyyədə turnirə yollanmaq əsas məqsədimizdir, – deyə sözlərinə əlavə edir.

**Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov hazırlıqda əsas məqsədin qarşıdan gələn Avropa və dünya çempionatında uğurlu çıxış etmək və Paris Olimpiadasına lisenziya qazanmaq olduğunu deyir:**

– Ağırlıqqaldırma Federasiyasının yeni dayaq təlim-məşq bazası istifadəyə verilib. Özbəkistan millisi də yığmamızla birgə məşq keçir. Bu cür təlim-məşq toplanışlarını ənənə halına salmaq istəyirik. Gələcəkdə Türkiyə və digər ölkələrin yığmaları ilə birlikdə də toplanışlar keçirməyi planlaşdırırıq. Əsas yığmalarımız hazırda ölkə xaricində təlim-məşq toplanışındadır. Qadınlar Türkiyənin paytaxtı Ankarada, kişilər isə Çorum şəhərində hazırlıq keçirlər. Qarşıda Olimpiadaya lisenziya xarakterli turnirlər – Avropa çempionatı, dünya kuboku yarışı gəlir.

Qurum rəsmisi qeyd edir ki, federasiya rəhbərliyi tərəfindən idmançılar üçün hər cür şərait yaradılıb. Əsas hədəf kütləviliyi artırmaq, yeniyetmə və gənclərin məşq proseslərini düzgün şəkildə davam etdirməkdir. Bu yaxınlarda yeni məşqçilər korpusu artıq təsdiq olunub. Onların da qarşısına yarışlarla bağlı məqsəd qoyulub. Dövlətimizin idmançılara göstərdiyi diqqət və qayğıya böyük qələbələrlə cavab verməliyik. Yüksək hazırlıq uğurlu nəticələr vəd edir.

**Azərbaycan millisinin üzvü Ömər Cavadov bu il həm Avropa çempionatında, həm də dünya kuboku yarışında qızıl medalı hədəflədiklərini vurğulayır:**

– Bu turnirlər lizenziya xarakterli yarış olduğu üçün qızıl medal qazanmaq istəyirik. Çünki Paris Yay Olimpiya Oyunlarında iştirakımız bu yarışlardakı nəticələrdən asılı olacaq. İnanıram ki, çətin də olsa, Olimpiadaya lisenziya əldə edəcəyik.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 007 (30411) 14 yanvar 2024-cü il, bazar

# Güləşçimiz reytinq turniri qalibidir

**Xorvatiyada keçirilən "Zaqreb Open" turnirində Azərbaycanın yunan-Roma güləşçisi Sənan Süleymanov (77 kq) uğurla çıxış edib.**




Təmsilçimiz digər rəqibləri kimi, finalda macarıstanlı Joltan Levaya (5:0) da qalib gələrək, reytinq turnirinin qalibi olub.

Qadınların mübarizəsində isə Alyona Kolesnik (59 kq) macarıstanlı Nikolet Şabonu 11:8 hesabı ilə məğlub edərək "bürünc" qazanıb.

Qeyd edək ki, Azərbaycan idmançıları reytinq turnirində daha əvvəl üç bürünc medala sahib olublar. Belə ki, sərbəst güləşçilərdən Əliabbas Rzazadə, Nürəddin Novruzov (hər ikisi 61 kq) və Cəbrayıl Qadjiyev (74 kq) mükafatçılar sırasında yer alıblar.

# Boks millimiz ABŞ-a yollanıb

**Kişi boksçulardan ibarət Azərbaycan milli komandası lisenziya turnirlərinə hazırlıq üçün ABŞ-a yola düşüb.**



Bu barədə "XQ"yə Azərbaycan Boks Federasiyasından məlumat verilib.

Olimpiya çəki dərəcələri üzrə yığmamız lisenziya turnirlərinə və Paris Yay Olimpiya Oyunlarına hazırlığı Koloradoda davam etdirəcək.

Təlim-məşq toplanışında baş məşqçi Pedro Roke, məşqçilər Nəriman Abdullayev və Etibar Abdullayevin rəhbərliyi altında 9 boksçu iştirak edir. Onlar hazırlıqda Nicat Hüseynov (54 kq), Ümid Rüstəmov, Şamil Əsgərov (hər ikisi 57 kq), Tayfur Əliyev, Malik Həsənov (hər ikisi 63,5 kq), Sərxan Əliyev (71 kq), Murad Allahverdiyev (80 kq), Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayevi (+92 kq) yoxlayacaqlar.

# Hənbol turunda 2 oyun

**Həndbol üzrə Azərbaycan çempionatında VII turun daha iki oyununda qaliblər müəyyənləşib.**



Kişi həndbolçuların yarışında "Təhsil" "İdman Akademiyası"nı (30:28), "Kür" isə "Bakı"nı (26:20) məğlub edib.

Yekun nəticələrə görə, "Kür" 12 xalla liderdir. "Bakı", "Qarabağ" və "Azəryol"un hərəyə 8, "Təhsil" və "İdman Akademiyası"nın hərəyə 2 xalı var. Sonuncu sıradakı "Dinamo" isə xalsızdır.

*Leyla SABİRQIZI*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Təbiət

# Laçında 2-ci qar

**Laçında yanvar ayının ikinci qarı yağıb. Dağlar qoynunda yerləşən şəhər yenidən ağ örpəyə bürünüb.**



Dünən səhər saatlarında başlayan sulu qar saat 9 radələrində qara çevrilərək qısa müddətdə hər tərəfi ağ örpəyə bürüyüb. Həmçinin silsilə dağlar arasında yaranan bulud qatı şəhərin gözəlliyini daha da artırıb.

Qeyd edək ki, Laçına mövsümün ilk qarı 2023-cü il dekabrın 19-da yağıb. Yeni ilin yanvar ayında isə artıq ikinci dəfədir ki, Laçın ağ örpəyə bürünüb.

*XQ*

Texnologiya yenilikləri

# Süni intellekt üçün yeni materiallar

**"Google DeepMind" əməkdaşlarının hazırladığı "GNoME" müasir texnologiyalarda istifadə oluna biləcək materialları kəşf etməyə kömək edən yeni süni intellekt proqramıdır.**



"GNoME" tərəfindən proqnozlaşdırılan 2,2 milyon yeni kristal strukturun 736-sı dünyanın müxtəlif tədqiqat qrupları tərəfindən sintez edilib. Bundan əlavə, "Lawrence Berkeley" Milli Laboratoriyasında (ABŞ) çalışan bir araşdırma qrupu "GNoME" tərəfindən proqnozlaşdırılan materialların robot laboratoriyalarında avtonom şəkildə sintez edilə biləcəyini göstərən başqa bir araşdırma aparıb. Həm "Google DeepMind", həm də Lourens Berkli Milli Laboratoriyası tərəfindən aparılan tədqiqatların nəticələri "Nature" jurnalında dərc olunub.

Tədqiqatçılar əvvəlcə kristal strukturlar haqqında məlumat bazasından əldə etdikləri məlumatlar əsasında hazırladıqları süni intellekt tətbiqini öyrədiblər. Verilənlər bazasına Material "Project"in internet saytından daxil olmaq olur. "GNoME" qrafik neyron şəbəkəsi (GNN) kimi təsnif edilən tətbiq nümunəsidir. Molekulyar strukturları təsvir etmək üçün çəkilmiş qrafiklər proqrama giriş kimi verilir.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

Kosmos

# "Qırmızı planet"in sarı-qəhvəyi çaları

**Planetlərin tərkibi onların rənginə təsir edir. Hətta qədim dövrlərdə Mars məhz bu xüsusiyyətinə görə "Qırmızı planet" adlanıb. Bu kosmik obyektin rənginə torpaqdakı mineralların miqdarı və atmosferdə qırmızı toz təbəqəsindən keçən günəş şüaları təsir göstərir.**



Avropa Kosmik Agentliyinin "Mars–Ekspres" planetlərarası stansiyasında 2024-cü ildə minerallarin oksidləşməsi ilə bağlı bir sıra təcrübələr aparılmışdır. Tədqiqatlar sayəsində elm adamları Marsın torpaqlarında yüksək miqdarda dəmir hissəciklərinin, xüsusən də maqnetitlərin olduğunu təsdiqləmişlər. Onlar "Qırmızı planet"in bütün səthini örtüb və onun dərinliklərinə qədər məsafəyə yayılıb.

Əvvəlki faktlara əlavə olaraq məlum olub ki, Günəşin çıxması və batması zamanı Marsın rəngi cəhrayıdan sarı-qəhvəyi rəngə qədər dəyişir. Bu, atmosferdə işığın səpilməsi və su buzu ilə bağlıdır.

*Ə.PÜNHAN*
*XQ*

Hava

# Qar, şaxta, həm də duman...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 14-də Bakıda və Abşeron yarımadasında arabir qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var.***

Axşam tədricən kəsiləcək. Gecə və səhər duman olacaq. Arabir güclənən şimal-şərq küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 0-3° şaxta, gündüz 0°-yə yaxın, axşam 1°-dək şaxta olacaq.Atmosfer təzyiqi 766 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında arabir qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 1° şaxtadan 3°-dək isti, dağlarda gecə 10-15°, gündüz 3-8° şaxta olacaq. Gecə və səhər dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

*Q. QASIMOV*
*XQ*

Nizami dühasının işığı

# Eşqdən gözəl nəsə varmı?

**Nizami Gəncəvi özünün yaratdığı "Xosrov və Şirin" poemasına məhəbbətin, eşqin möhtəşəm abidəsi kimi baxırdı. O, eşqdən alovlanıb yanan bir aşiq kimi deyirdi:**



– Mənim aləmimdə eşqdən gözəl bir şey yoxdur. Nə qədər ki, sağam, qoy eşqdən başqa işim olmasın. Fələyin eşqdən özgə mehrabı yoxdur. Eşq torpağı olmasa, yerdə su tapılmaz... Göylər eşqdən azad olsaydı, yer üzü abad olmazdı... Dünyada eşq dərdindən yaxşı heç nə yoxdur. Onsuz gül gülməmiş, bulud ağlamamışdır. Əgər daşın qəlbində eşq varsa, o gövhəri məşuqə kimi qucaqlayar, əgər maqnitdə eşq olmasaydı, dəmiri o qədər böyük bir şövq ilə özünə tərəf çəkməzdi. Əgər kəhrəba aşiq olmasaydı, saman çöpünü axtarıb tapmazdı.

Əgər dərindən düşünsən, görərsən ki, bütün kainat eşq üzərində dayanmışdır:

*Eşqdir mehrabı uca göylərin*
*Eşqsiz, ey dünya, nədir dəyərin!*

**"Bar gətirən ağac əkməliyəm"**

Nizami özünə qarşı çox tələbkar idi. O, özünü "şair" adlandıranlara deyirdi ki, əgər şeirin səni hamıya tanıtdırmırsa, özünü "şair" adlandırma. Şair həyatın mənasını çalışmaqda, yaratmaqda, xalqına fayda verməkdə görürdü.

Nizami "İsgəndərnamə" poemasını qələmə alanda artıq gəncliyini arxada qoymuş, ömrünün baharı xəzana dönmüş, sərv qəddi bükülmüş, gücü-taqəti tükənmişdi. Lakin şairin qəlbi hərarətlə döyünür, coşurdu, gözünün yuxusu itmişdi. Dahi sənətkar ahıl vaxtında öz varlığını unutmuş, daha yeni bir əsər yazmaq arzusu ilə həvəslənib demişdi:

– Pərvanələr üçün yeni bir şam yandırmalı, bar gətirən bir ağacın tumunu əkməliyəm.

Şairin iradəsi qalib gəlir, "İsgəndərnamə" böyük sənət eşqilə yazılır və başa çatdırılır. Nizami öz ölməzliyinə, əbədi yaşayacağına inanır və deyirdi:

*Yüz il sonra desən, "haradadır, o?"*
*Hər yerdən səs gələr, "buradadır, o!"*

**"Leyli və Məcnun" necə qələmə alınıb?**

Hökmdar Axsitanın "Leyli və Məcnun" poemasını qələmə almasını və "bu təzə gəlini fars və ərəb bəzəyi ilə bəzəməsini" Nizamidən tələb etməsi şairi bərk əsəbiləşdirmişdi. O demişdir: "Şahın halqasının qulağıma taxıldığını gördükdə qan beynimə vurdu. Nə bu təklifi rədd etməyə cürətim vardı, nə də xəzinəyə yol tapmaq üçün gözüm vardı".

O, şahın təklifini rədd etmək istəyəndə "canından əziz tutduğu" oğlu Məhəmmədin xahişini yerə salmır, fikrindən daşınır. Məşhur aşiqanə "Leyli və Məcnun" poemasını qəlbinin qanı ilə yazır və başa çatdırır.

*Z.HÜSEYNLİ*
*XQ*

Teatr

# "Yuğ"da "Asılqan" sayrışması




**Dünən "Yuğ" Dövlət Teatrında Əbdülqəni Əliyevin quruluşunda hazırlanan "Asılqan" adlı yeni tamaşa növbəti dəfə nümayiş olunub. Səhnə əsərində aktyorlar Elşən Əsgərov və Ləman Mərrih çıxış ediblər.**

Qeyd edək ki, tamaşanın quruluşçu rəssamı Əfşan Əsədova, rejissor assistenti isə Məryəm Qələndərovadır.

Xalq yazıçı Anarın "Asılqanda işləyən qadının hekayəti" əsəri əsasında hazırlanan tamaşa həyatlarının hər bir dönəmində sınaqlarla üzləşən iki gəncin sevgi hekayəsindən bəhs edir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3249
SİFARİŞ 51
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00